
Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 37 (24.419)

14 sentyabr 2024-cü il, şənbə

www.serqqapisi.gov.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi



# Bir nömrəli ticarət tərəfdaşımız

## Regional və beynəlxalq müstəvidə mühüm iqtisadi güc

*Azərbaycan-İtaliya ticarət tərəfdaşlığı*

Tarixi qədimlərə gedib çıxan Azərbaycan-İtaliya münasibətləri ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra diplomatik əlaqələr zəminində böyük inkişaf yolu qət edib. Cənubi Qafqaz ölkələri arasında ilk dəfə 1997-ci ildə İtaliyanın Azərbaycanda, 2003-cü ildə isə Azərbaycanın İtaliyada səfirliyi açılıb. Son illərdə ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, bir sözlə, bütün sahələrdə əməkdaşlıqlar öz əhatə dairəsini daha da genişləndirib, çəkisini artırıb. Çoxtərəfli əlaqələrin, çoxölçülü strateji münasibətlərin, eyni zamanda bəslənilən rəğbətin, etimadın nəticəsidir ki, İtaliya dövlət səviyyəsində "Azərbaycan ili" elan edən ölkə kimi tarixə düşüb, bu çərçivədə 2020-ci ildə silsilə layihələr reallaşdırılıb. İtaliya 44 günlük Vətən müharibəsi dövründə ayrı-ayrı rəsmi orqanlarında, mətbuatda, müxtəlif səviyyələrdə respublikamızın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörməti, dəstəyi açıq bəyan edən barmaqla sayılacaq Avropa ölkələrindəndir. Təbii ki, bütün bu dəstəyin, hörmətin təməlində Prezident cənab İlham Əliyevin apardığı uğurlu diplomatiya, qarşılıqlı səfərlər zamanı imzalanan sənədlər əsasında gücləndirilən siyasi, iqtisadi tərəfdaşlıqlar dayanır. Ötən həftə dövlət başçımızın İtaliyaya növbəti işgüzar səfəri də çoxtərəfli əlaqələrin yeni perspektivləri baxımından olduqca məhsuldar keçdi deyə bilərik...

Səhifə ⇨ 2

# YENİ tədris ili hədəflər

Yeni tədris ilinin başlaması, Bilik Günü təhsil ocaqlarında böyük təntənə ilə qeyd olunur. Şagirdlər və müəllimlər böyük həyəcan və sevinclə bu günün gəlib çatmasını gözləyirlər. Həmin gün yüzlərlə fidan məktəb kimi müqəddəs ocağın yolunu tutur. Məktəb – xalqın mənəvi beşiyidir.

Səhifə ⇨ 5

# Qüdrətdən səngərli Əlincə!



Səhifə ⇨ 6

# "Türk Dövlətlərinin I Tibb Konqresi (II Tibbi Forum)" keçirilib



Səhifə ⇨ 7

# "Muxtariyyət kuboku"nun final oyunu keçirilib



Səhifə ⇨ 3

# Naxçıvanda Sahibkarlığın İnkişafı Fonduna qaytarılan güzəştli kreditlər üzrə daxilolmalar artıb




Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun cari hesabına 2024-cü ilin yanvar-avqust ayları ərzində qaytarılan güzəştli kreditlər üzrə daxilolmaların məbləği 14,3 milyon manatdan artıq olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3,8 dəfə çoxdur.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən "Şərq qapısı"na bildirilib ki, cari ilin 8 ayı ərzində 10,3 milyon manat vaxtı keçmiş kredit vəsaitinin ödənilməsi təmin edilib. Bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 21,1 dəfə çoxdur.

# Muxtar respublikada ümumi daxili məhsul istehsalı artıb



Cari ilin yanvar-avqust aylarında muxtar respublikada ümumi daxili məhsul istehsalı 950 milyon 248 min 700 manat olub ki, bu da 2023-cü ilin müvafiq dövründəki göstəricidən 0,6 faiz çoxdur. Bu dövr ərzində əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul istehsalı 0,1 faiz artaraq 2 024,8 manat olub.

Bu barədə "Şərq qapısı"na Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən məlumat verilib. Eyni zamanda bildirilib ki, 2024-cü ilin yanvar-avqust aylarında muxtar respublikada 335 milyon 493 min manatlıq sənaye məhsulu istehsal edilib ki, bu da 2023-cü ilin müvafiq dövründəki göstəricini 1,9 faiz üstələyib. Sənaye məhsulunun 299 milyon 173 min 600 manatı və ya 89,2 faizi malların, 36 milyon 319 min 400 manatı və ya 10,8 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənaye məhsulunun 0,2 faizi mədənçıxarma, 83,9 faizi emal, 14,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,3 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olub.

# Bir nömrəli ticarət tərəfdaşımız



## Regional və beynəlxalq müstəvidə mühüm iqtisadi güc
## *Azərbaycan-İtaliya ticarət tərəfdaşlığı*

*(əvvəli 1-ci səhifədə)*

Dünya praktikasına nəzər salsaq görərik ki, iki ölkə arasında yaxınlıq, tərəfdaşlıq əlaqələrinin təməlində mütləq şəkildə xalqlararası mədəni, ictimai münasibətlər dayanır. Bu baxımdan ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi diplomatiyada, dövlət siyasətində də bu amil özünü bariz şəkildə göstərir, yəni dövlət başçımız istənilən ölkə ilə əlaqələri gücləndirən zaman bu məqama xüsusi önəm verir. Bunu strateji müttəfiqliyimizin, dostluğumuzun möhkəm təməllər üzərində qurulduğu Türkiyə, Rusiya, Özbəkistan və Pakistanla münasibətlərin timsalında da açıq-aydın görə bilərik. Məhz İtaliya ilə ticarət tərəfdaşlığının özülündə də bu ölkə ilə mədəni əlaqələrimiz dayanır desək, yanılmarıq. Ümummilli Liderimizin sayəsində hələ ötən əsrin 70-ci illərində, daha dəqiq desək, 1972-ci ildə Bakı və Neapol şəhərləri arasında qardaşlaşma münasibətlərinin təməlinin atılması ilə yeni mərhələsinə qədəm qoyan ölkələrarası mədəni, ictimai əlaqələr bu gün sürətli inkişaf dövrünü yaşayır. Bu xüsusda ölkəmizin Birinci vitse-prezidenti, ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Romada tarixi abidələrin bərpası, mədəni layihələrini reallaşdırması da müstəsna rola malikdir. Eyni zamanda bu baxımdan İtaliya şirkətlərinin Azərbaycanın tarixi zəfərindən sonra apardığı böyük quruculuq siyasətinə töhfələrini, xüsusilə də Bakıda Zəfər Muzeyinin, eləcə də azad edilmiş bir çox şəhərlərdə Qələbə və İşğal muzeylərinin, həbelə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada tarixi abidələrimiz və dağıdılmış məscidlərimizin bərpasında fəal iştirakını da qeyd etmək olar. 2022-ci ildə Romada Azərbaycanın Mədəniyyət Mərkəzinin və həmin ildə Bakıda İtaliya-Azərbaycan Universitetinin təsis edilməsi də məhz humanitar və mədəni sahələrdə qarşılıqlı fəaliyyətin bariz göstəricisidir...

Azərbaycanın Avropa miqyasında etibarlı ticarət tərəfdaşı sayılan İtaliya ilə əməkdaşlıq əlaqələri, xüsusilə ölkə Prezidentinin iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümündə – 2022-ci il avqustun 31-də bu ölkəyə işgüzar səfərindən sonra daha da genişlənib, dərinləşib. Bunun nəticəsidir ki, həmin ildə ölkələrarası ticarətin həcmi 11 milyard avroya yüksəlib. 2023-cü ildə isə bu dövriyyə 15 milyard 685 milyon dollar olub. Ümumiyyətlə, son dörd ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 3,4 dəfə artıb. 2023-cü ildə Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin 30 faizindən çoxu İtaliyanın payına düşüb. 2024-cü ilin yanvar-iyul aylarında isə ticarət dövriyyəsinin həcmi 6,2 milyard ABŞ dolları, o cümlədən idxalın həcmi 0,3 milyard ABŞ dolları, ixracın həcmi 5,9 milyard ABŞ dolları təşkil edib. Bu gün İtaliyanın 100-dən çox şirkəti Azərbaycanda müxtəlif sahələrə sərmayə yatırırlar. Ümumilikdə, müstəqillik illərində İtaliyanın Azərbaycan iqtisadiyyatına 770 milyon ABŞ dollarından çox, Azərbaycanın isə İtaliyaya 1,7 milyard ABŞ dolları həcmində investisiya yatırması uğurlu iqtisadi əməkdaşlığın mühüm nailiyyət göstəricisidir. Prezident cənab İlham Əliyevin ötən həftə İtaliyaya işgüzar səfəri zamanı imzalanan sənədlər, keçirilən görüşlər də əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsi üçün yeni perspektivlər açdı.

Dövlət başçımızın ikinci dəfə Beynəlxalq Çernobbio Forumunda iştirakı isə cənab İlham Əliyevə həm İtaliyada, həm də Avropa miqyasında bəslənilən dərin hörmətdən xəbər verir. Bu mənada, təsadüfi deyil ki, ölkə rəhbərinin "Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş forumda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxışı, verdiyi mühüm mesajlar dünyanın bir sıra nüfuzlu media orqanlarının gündəmini tutdu, əsas manşetə çevrildi. Prezident uzun illər ərzində ölkələrin strateji tərəfdaşlar kimi fəaliyyət göstərdiyini, müvafiq bəyannamənin, təqribən, 10 il əvvəl qəbul edildiyini diqqətə çatdıraraq İtaliyanı Azərbaycanın ən yaxın ticarət tərəfdaşı kimi qiymətləndirdi. Sitat: ***"Bizim ticarət əməkdaşlığımız olduqca fəaldır. İtaliya Azərbaycanın dünyada bir nömrəli ticarət tərəfdaşıdır. Ötən il bizim ticarət dövriyyəmiz 16 milyard ABŞ dollarına yaxın olub. Biz artım üçün potensialı yalnız enerji sektorunda deyil, digər sahələrdə də görürük. Azərbaycan İtaliyanın bir nömrəli neft və ikinci ən böyük qaz təchizatçısıdır. Bu da bizim əməkdaşlığımızın vacib hissəsidir".***





Bəli, Azərbaycanla Avropa Birliyinə daxil 10 ölkə arasında Strateji Tərəfdaşlıq haqqında sənədlər imzalanıb ki, bunlar arasında ən yaxın ticarət tərəfdaşımız məhz İtaliyadır. Bu tərəfdaşlıqda "Böyük yeddiliy"ə əsas üzv ölkələrdən olan İtaliyanın Cənubi Qafqazın lideri Azərbaycanın mühüm neft-qaz ixracatçısı kimi rolunun müstəsna əhəmiyyəti vardır. Bu xüsusda "Cənub qaz dəhlizi" və onun tərkib hissəsi olan Trans-Adriatik qaz boru kəmərini (TAP) ikitərəfli enerji əməkdaşlığını və İtaliyanın enerji təhlükəsizliyini möhkəmləndirən, eyni zamanda ölkəmizin Avropa enerji məkanındakı qüdrətini və nüfuzunu artıran əsas amil kimi dəyərləndirmək olar. Ötən il TAP kəməri vasitəsilə İtaliyaya, təqribən, 10 milyard kubmetr qazın ixrac olunması da neft-qaz sektorunda əməkdaşlığın mühüm meyarıdır. Cənab İlham Əliyev də forumda çıxışı zamanı bütün bu sadalanan amillərdən yola çıxaraq enerji təhlükəsizliyi məsələsinin milli təhlükəsizliyin əsas parçası olduğunu vurğuladı: ***"Bu gün enerji təchizatı onu aydın şəkildə nümayiş etdirir ki, enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz parçasıdır. Azərbaycandan İtaliyayadək uzanan, Cənub Qaz Dəhlizi adlanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi bu gün 10 ölkənin enerji təhlükəsizliyini təmin edir. Hazırda 10 ölkə Azərbaycandan qaz alır və onlardan 7-si Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı və etibarlı tərəfdaş adlandırır".***

Bu məqamda onu da xüsusi vurğulamaq yerinə düşər ki, Azərbaycanla İtaliyanı yaxınlaşdıran ticarət tərəfdaşlığı təkcə neft-qaz ixracatı ilə məhdudlaşmır. Ölkələrarası əməkdaşlıq əlaqələrində qeyri-neft sektorunun da payı kifayət qədərdir. Belə ki, hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət və digər sektorlarda İtaliyanın şirkətləri fəaliyyət göstərir, ölkəmizin qeyri-neft sektorunda dəyəri 708 milyard dollar olan 37 layihədə podratçı kimi iştirak edirlər. Xüsusilə son illərdə "yaşıl kimya", "yaşıl enerji", "yaşıl enerji zonası", "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyaları əsasında əməkdaşlıq iqtisadi münasibətlərdə yeni mərhələ kimi vurğu gərəkdirir. Ölkə başçısının budəfəki işgüzar səfəri zamanı İtaliyanın "Eni S.P.A", "Ansaldo Energia" şirkətlərinin baş icraçı direktorları, Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyanın həmsədri ilə görüşlər, aparılan müzakirələr "yaşıl enerji"nin ixracı istiqamətində bu sahədə təkmil texnologiyaların tətbiqi baxımından mühüm perspektivlər vəd edir.

Ümumilikdə, Azərbaycan Prezidentinin İtaliyaya növbəti işgüzar səfəri qaz təchizatı üzrə Avropa və Avrasiya coğrafiyasını əhatə edən ticarət əlaqələrinin daha da gücləndirilməsi ilə yanaşı, humanitar sahələr üçün əməkdaşlığın yeni imkanlarının açılmasına da töhfələr verdi. Bir sözlə, bu iki ölkə bir daha möhkəm dost, etibarlı tərəfdaş olaraq bütün dünyaya qitələrarası münasibətlərin nümunəsini nümayiş etdirdilər. Ölkə başçısının dünyanın mühüm beyin mərkəzlərindən sayılan Beynəlxalq Çernobbio Forumunda da dediyi kimi: ***"Mən giriş sözümü ikitərəfli münasibətlərimizin əhəmiyyətinin vurğulanması ilə başladım. Çünki bu onun göstəricisidir ki, münasibətlər qarşılıqlı etimad və hörmət, qarşılıqlı maraqların nəzərə alınması üzərində qurulursa, o zaman tərəqqinin şahidi oluruq. Bu, bir-birindən uzaqda, fərqli qitələrdə yerləşən ölkələr arasında münasibətlərin necə qurulmalı olduğunun nümunəsidir".***

**Nail ƏSGƏROV**




# "Muxtariyyət kuboku"nun final oyunu keçirilib

Naxçıvan şəhərində Azərbaycan və Türkiyə komandalarının iştirakı ilə yeniyetmə qızlar arasında muxtar respublikanın 100 illik yubileyinə həsr olunmuş "Muxtariyyət kuboku" uğrunda birincilik keçirilib. Azərbaycan Voleybol Federasiyasının dəstəyi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Voleybol Federasiyasının birgə təşkilatçılığı ilə sentyabrın 4-dən start verilən turnirdə 8 komanda iştirak edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli sentyabrın 7-də keçirilən final oyununu izləyib.



Final oyununda "Naxçıvan" və "Əskişəhər" komandaları meydana çıxıblar. Gərgin və maraqlı mübarizə zəminində keçən yarışı Olimpiya İdman Kompleksində çoxsaylı tamaşaçı izləyib.

Oyun "Əskişəhər" komandasının 3-2 hesablı qələbəsi ilə başa çatıb.

Qarşılaşmanın ardınca mükafatlandırma mərasimi keçirilib.

Nəticələrə əsasən birinciliyin rəmzi komandasının üzvləri seçilən idmançılar "Ən yaxşı hücumçu", "Ən yaxşı libero", "Ən yaxşı blokçu", "Ən yaxşı toppaylayıcı", "Ən yaxşı diaqonal oyunçu" və "Ən dəyərli oyunçu" nominasiyaları üzrə mükafatlandırılıblar.

Sonra "Muxtariyyət kuboku" uğrunda birincilikdə ilk üç yerin qalibi olmuş komandalara medal və kuboklar təqdim olunub.

# Təhsil işçilərinin sentyabr konfransı keçirilib

Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində muxtar respublika təhsil işçilərinin sentyabr konfransı keçirilib.



Konfrans iştirakçıları əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyat və siyasi fəaliyyətini əks etdirən eksponatlarla tanışlıq olub.

Sonra tədbir iştirakçıları "Gənclik" Mərkəzinin foyesində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə tabe məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvlərinin hazırladıqları əl işlərindən ibarət sərgiyə baxıblar.




Konfransda əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov çıxış edərək bildirib ki, bu gün nazirliyin tabeliyində 269 təhsil müəssisəsi fəaliyyət göstərir. Onlardan 210-u ümumtəhsil məktəbi, 20-si məktəbəqədər, 35-i məktəbdənkənar, 1-i xüsusi təhsil, 3-ü isə peşə təhsil müəssisəsidir. Naxçıvanda bu il ilk dəfə olaraq ölkə üzrə mərkəzləşmiş qaydada hər bir namizədə bərabər imkanlar yaradılmaqla və şəffaflıq təmin edilməklə keçirilən müəllimlərin işə qəbulu üzrə müsabiqədə namizədlərdən 133-ü müəllim adını qazanıb. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə müsabiqənin test mərhələsinə 1667 namizəd dəvət olunub, onlardan 1341-i (80,4 faizi) imtahanda iştirak edib. Ölkə üzrə mərkəzləşmiş qaydada müəllimlərin sertifikasiya prosesi keçirilib, imtahanlarda Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, xarici dil (ingilis, rus, alman və fransız dilləri) və ibtidai sinif fənləri üzrə 366 müəllim iştirak edib ki, onlardan 153-ü 51 və daha yüksək bal toplayıb. Müəllimlərdən 2-si maksimum nəticə (60 bal) göstərib. Prosesdə 97,3 faiz davamiyyət qeydə alınıb, sertifikatlaşdırma imtahanında iştirak edən təhsilverənlərdən 91 faizi müəyyən olunmuş bal həddini keçərək uğur qazanıb.

Qeyd edilib ki, 2024-cü il şagird nailiyyətləri baxımından Naxçıvan təhsili üçün ən uğurlu illərdən biridir. Belə ki, buraxılış və qəbul imtahanlarında şagirdlər tərəfindən son 5 ilin ən yüksək nəticələri əldə edilib. Dövlət İmtahan Mərkəzi tərəfindən tam (11 illik) orta təhsil səviyyəsi üzrə keçirilmiş buraxılış imtahanının nəticələrinə əsasən imtahan iştirakçıları arasında Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərindən 4 şagird 300 bal toplamaqla ən yüksək nəticə göstərib. Bölgələr arasında da muxtar respublikanın ümumtəhsil məktəbləri ən yüksək göstəricilər baxımından ikinci yerdə qərarlaşıb. 292 şagirdin 250-300 bal intervalında nəticə göstərməsi şagirdlərin yüksək hazırlıq səviyyəsini təsdiqləyir. Həmçinin 2023-2024-cü tədris ilində keçirilən ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə də buraxılış imtahanlarında 5 şagird 300 bal toplamaqla maksimum nəticə əldə edib. Eyni zamanda fərqlənmə attestatı ilə məktəbi bitirən məzunların sayı da əhəmiyyətli dərəcədə artıb, ötən il ümumi və tam orta təhsil səviyyəsi üzrə 121 məzun fərqlənmə attestatı alıb, cari tədris ilində isə bu göstərici 3 dəfədən çox artaraq 390 nəfərə (253 tam (11 illik) orta, 134 ümumi (9 illik) orta təhsil səviyyələri üzrə) yüksəlib. 8 məzun "Qızıl", 1 məzun isə "Gümüş" nişana layiq görülüb. Məzunlar qəbul imtahanlarında da bu missiyanı uğurla davam etdirərək ötən ilin nəticələrini geridə qoyublar. 2023-2024-cü tədris ilində Naxçıvan Muxtar Respublikasının ümumtəhsil müəssisələrini bitirən məzunlardan 327-si 500-700 intervalında bal toplayıb. 2022-2023-cü tədris ilində isə 500-700 intervalında bal toplayan məzunların sayı 196 olub. Naxçıvanda 500-700 intervalında bal toplayan məzunların sayı ötən tədris ili ilə müqayisədə 67 faiz artıb.

Konfransda şagirdləri qəbul imtahanlarında yüksək nəticə göstərən Babək rayon Arazkənd ümumi orta məktəbinin müəllimi Dünya Əliyeva və Culfa şəhər 3 nömrəli tam orta məktəbin müəllimi Vüsalə Ələkbərova çalışdıqları təhsil ocaqları üzrə qazanılan nailiyyətlərdən danışıblar.

Azərbaycan elm və təhsil nazirinin müavini Firudin Qurbanov qeyd edib ki, araşdırmalar artıq XXI əsr şagirdlərinə faktların mexaniki əzbərlənməsini lazım olduğunu göstərir. Onlar istədikləri məlumatı internet vasitəsilə saniyələr sərf etməklə əldə edə və ondan istifadə edə bilir. Elm və texnologiyaların sürətli inkişafı həyatımızı nə qədər rahatlaşdırırsa, təsəvvür edə bilməyəcəyimiz bir çox problemləri də özü ilə birlikdə gətirir. Onların həlli üçün müəllimlərin qarşısında duran əsas məsələ şagirdlərə necə kömək etmək və onları düşünməyə necə cəlb etmək olmalıdır. Bir neçə ildən sonra tamamilə yeni peşələr olacaq. Bu gün elə gənclər formalaşmalıdır ki, "çərçivədən" kənar düşünmək bacarıqları olsun, müstəqil təhsil almaq bacarıqları olsun, özünüinkişafın təmin etsin, öz intellektini artırsın.

Slayt vasitəsilə ölkəmizdə 2003-2023-cü illərdə təhsil infrastrukturunun təkmilləşməsindən söz açan nazir müavini qeyd edib ki, əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan təhsil quruculuğunu ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. Son illərdə təhsil infrastrukturu tamamilə yenilənib, tədris şəraiti tam müasirləşdirilib. 2017-2022-ci illərdə bir milyondan çox şagirdin tədris şəraitinin yaxşılaşdırılmasına xidmət edən 414 modul tipli məktəb tikilib istifadəyə verilib. 2023-cü ilin sonunadək ölkə ərazisində 1365 məktəb fiber-optik şəbəkəyə qoşulub, 2026-cı ilədək daha 1500 məktəbin fiber-optik şəbəkəyə qoşulması planlaşdırılır. Texnoloji təminatın ilbəil daha da yaxşılaşdırılmasının nəticəsidir ki, 2020-ci ildə 36 şagirdə 1 kompüter düşürdüsə, 2026-cı ildə bu say 6 şagirdə 1 kompüter təşkil edəcək.

Konfrans Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvlərinin ifasında mahnı nömrələrinin səsləndirilməsi ilə yekunlaşıb.

Sonda "Gənclik" Mərkəzinin qarşısında xatirə şəkli çəkdirilib.

# Naxçıvanda 2024-cü ildə fəaliyyət göstərən arxeoloji ekspedisiyaların yekunları təqdim olunub

AMEA Naxçıvan Bölməsində cari ildə muxtar respublikada fəaliyyət göstərən arxeoloji ekspedisiyaların yekunları ilə bağlı hesabat iclası olub.



İclası açan Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev 2024-cü ilin iyul-avqust ayları ərzində muxtar respublikada 6 arxeoloji ekspedisiyanın fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Akademik bildirib ki, həmin ekspedisiyalardan 2-si AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu, 4-ü isə AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu tərəfindən həyata keçirilib. Belə ki, arxeoloji ekspedisiyalar AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyevin rəhbərliyi ilə Babək rayonu ərazisindəki Bülövqaya yaşayış yerində, tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyevanın rəhbərliyi ilə Şərur rayonu ərazisindəki I və II Xələc yaşayış yerində, tarix üzrə fəlsəfə doktoru, dosent Bəhlul İbrahimlinin rəhbərliyi ilə Ordubad rayonu ərazisindəki Xaraba Gilan yaşayış yerində, tarix üzrə fəlsəfə doktoru, dosent Səfər Aşurlunun rəhbərliyi ilə I Maxta və II Kültəpə yaşayış yerində, tarix üzrə fəlsəfə doktoru Əkbər Bədəlovun rəhbərliyi ilə Babək rayonu ərazisindəki Meydantəpə yaşayış yerində, tarix üzrə fəlsəfə doktoru Qəhrəman Ağayevin rəhbərliyi ilə Şahtaxtı qədim abidələr kompleksində fəaliyyət göstərib.

Arxeoloji ekspedisiyaların fəaliyyəti, aparılan mühüm tədqiqatlar barədə fikirlərini dilə gətirən bölmə sədri qeyd edib ki, aparılan qazıntılar qədim dövr tariximizin daha dərindən öyrənilməsinə, bölgənin mədəni, iqtisadi inkişafı, eləcə də bölgə sakinlərinin həyat tərzi, dünyagörüşü, düşüncə sistemi barədə müfəssəl məlumat almağa kömək edir. Ümumilikdə, arxeoloji tədqiqat mütəxəssisdən böyük diqqət, işləmək əzmi və maraq tələb edir.

Çıxışının sonunda İsmayıl Hacıyev yekun hesabatı təqdim edən ekspedisiyalara gələcək araşdırmalarında uğur arzu edib.

Daha sonra AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyev Bülövqaya arxeoloji ekspedisiyasının cari ildə əldə etdiyi nəticələr barədə hesabatı təqdim edib.

Vəli Baxşəliyev bildirib ki, Bülövqaya yaşayış yerində aparılan araşdırmaların elmi ədəbiyyatlarda yer alan bir sıra məlumatların dəqiqləşməsində böyük rolu vardır. Ekspedisiyanın əvvəlində 3 sahədə qazıntı aparılmış, mədəni təbəqənin qalınlığı nəzərə alınmaqla qazıntılar ikinci və üçüncü sahələrdə genişləndirilmişdir. Qazıntılar nəticəsində birtəbəqəli yaşayış yerinin aşkar olunduğunu söyləyən arxeoloq həmin abidənin strukturu, buradan tapılan ocaq yerləri, əmək alətləri – dən daşları, cilalayıcı alətlər, itiuclu baltalar və sair haqqında məlumat verib.

Xələc arxeoloji ekspedisiyasının fəaliyyəti və əldə olunan nəticələri ekspedisiyanın rəhbəri, dosent Zeynəb Quliyeva təqdim edib.

Alim bildirib ki, ekspedisiya I və II Xələc yaşayış yerlərində qazıntı aparmışdır. II Xələcdə 4 sahə üzrə aparılan qazıntılar nəticəsində tikili aşkar olunmuşdur. Abidəni səciyyələndirən əsas xüsusiyyəti kərpiclə tikilməsi və qırmızı rəngli suvaqla suvanmasıdır. Araşdırma zamanı aşkar olunan abidənin strukturu, keramika məmulatlarının xarakteristikası, daş qutu qəbirlər və insan skeletləri barədə məlumat verən Zeynəb Quliyeva bir hissəsi üzə çıxarılmış abidənin ərazicə böyük ictimai tikiliyə aidliyini istisna etmir.

Daha sonra AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun şöbə müdiri, dosent Bəhlul İbrahimli Xaraba Gilan arxeoloji ekspedisiyanın fəaliyyəti və cari ildə əldə olunan nəticələr barədə hesabatı təqdim edib.

Əvvəlcə arxeoloji abidələrin qorunması və əhali tərəfindən dağıdılması probleminə diqqətçəkən alim bildirib ki, ekspedisiyanın cari ildəki fəaliyyəti xilasetmə-tədqiqat işləri xarakteri daşıyıb. Belə ki, əvvəlki illərdə öyrənilmiş, qazıntı aparılmış sahələrin dağıntıya məruz qalması xilasetmə işlərini ön plana çəkmişdir.

Vurğulanıb ki, ekspedisiyanın tədqiq etdiyi üçüncü abidə Xaraba Gilan şəhər yerinin qərb tərəfindəki dağın üzərində yerləşən II memorial kompleks olub. Memorial kompleksdə 8 türbənin olduğunu diqqətə çatdıran arxeoloq bildirib ki, qazıntı zamanı buradan müxtəlif formalı dekorativ kərpiclər, mavi rəngli kaşılar və ara bəzəkləri aşkar olunmuşdur. Əldə olunan inşaat keramikasına, memarlıq üslubuna əsasən türbənin XIII əsrin sonu-XIV əsrin əvvəllərinə aid olduğunu söyləmək olar.

Xaraba Gilan şəhər yeri və ətraf abidələri əhatə edən Arxeoparkın yaradılması fikrini irəli sürən alim bu layihənin 6 minillik tariximizin tədqiqinə və təbliğinə böyük töhfə verəcəyini, bölgəyə ekoturizm və digər sahələrdə də bu kimi layihələrin böyük faydalar gətirəcəyini qeyd edib.

Sonda iclas iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.



# Nuh nəfəsli Əcəmi yurdu

**Prezident İlham ƏLİYEV:**

> ***“Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün Ulu Öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax bu inkişafda təcəssüm etdirir.”***

Bu gün ölkəmizin, xalqımızın qazandığı bütün nailiyyətlər öz xeyirxah əməlləri, şəxsi nüfuzu ilə dahiliyin fövqündə özünə əbədi yer qazanmış fenomenal şəxsiyyət Heydər Əliyev siyasi xəttinin təntənəsidir. Cəmiyyətimizin inkişafı Ulu Öndərin ölməz və uzun illərə hesablanmış ideyalarına söykənir, hər bir azərbaycanlı bu ideyaları öz həyatında görür, Azərbaycan Heydər Əliyev yolu ilə daim uğurlar qazanaraq böyük zirvələri fəth edir. Bütün bunlar isə, təbii ki, 1969-cu ilin 14 iyulundan başlanan əbədi yoldur. Xalqımız bütün varlığı ilə inanır ki, ölkəmizdə həyata keçirilən siyasi xətt – Heydər Əliyev yolu Azərbaycanı bundan da böyük zəfərlərə qovuşduracaqdır. İndi ölkəmiz dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında bu yolla inamla irəliləyir, regionda və beynəlxalq aləmdə böyük iqtisadi və siyasi uğurlara imza atır. Bu qələbələr bizi zirvələrdən-zirvələrə ucaltmaqda və Azərbaycan cəmiyyətinin firavanlığını yüksək səviyyədə təmin etməkdədir. Fəxrlə qeyd etdiyimiz firavanlıqda isə muxtariyyət tarixinin ən şanlı və əlamətdar dövrünü yaşayan Naxçıvan xüsusi payı vardır. Blokada şəraitində olsa da, Naxçıvan yaşayır, sürətlə inkişaf edir. Muxtar respublikanın hər bir şəhəri, qəsəbəsi, kəndi yenidən qurulur, böyük və hərtərəfli tərəqqi işığında nura boyanır.

Görkəmli dövlət xadimi Heydər Əliyev əsl vətəndaş olmaq üçün ləyaqət göstərməyi, xalq, Vətən naminə çalışmağı, Vətən sevgisini, doğma torpağa, doğma yurda bağlılığı əməli işlə nümayiş etdirməyi tövsiyə edirdi: ***“Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır”.*** Bu mənada, tarixboyu başı çox bəlalar çəksə də, dəfələrlə yüksəliş dövrləri yaşamış, zəngin mədəni irs yaratmış qədim Naxçıvan bugünkü intibahı ilə sanki çəkdiyi müsibətlərin əvəzini çıxır, ulu köklər üstündə qol-qanad açıb daha xoş sabahlara doğru sürətlə addımlayır. Yeni tarixin yeni Naxçıvanının bu günü dostlarımızı sevindirir, düşmənlərə isə gözdağı verir.

Ötən illər Naxçıvan Muxtar Respublikasının çağdaş tarixinə sosial-iqtisadi inkişafın yeni uğurlu dövrü kimi yazılıb. Həyata keçirilən tədbirlər, əhalinin maddi rifah halının yaxşılaşdırılması, inkişafın mərkəzlə yanaşı, kəndlərə də istiqamətlənməsi, kəndlə şəhər fərqinin aradan qaldırılması həmin uğurların ciddi fundamental mahiyyətindən, geniş miqyasından xəbər verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2023-cü il 30 dekabr tarixdə imzalanmış “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncamda deyilir: *“2024-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam olur.*

*Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri-Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir”.*

1990-1993-cü illərdə çətinliklərlə qarşılaşan, erməni basqınları ilə üzləşən Naxçıvan Muxtar Respublikası Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qorunmuş və inkişafı təmin edilmişdir. Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, muxtar respublikanın 75 illik yubileyinin qeyd olunması, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həlli vacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin etmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2023-cü il 30 dekabr tarixdə imzalanmış “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncamda deyilir: *“Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur”.*

***“Naxçıvanın qədim dövlətçilik tarixi vardır. Bu, Azərbaycanın dövlətçilik tarixidir”.*** Ulu Öndərin Naxçıvana verdiyi bu qiymət qədim yurdumuz haqqında ən dəqiq və tarixi gerçəklikləri özündə ehtiva edən bir qiymətdir. Tarixin bütün dönəmlərində qoca Şərqin qapısında məğrur dayanan, bir neçə dövlətlə həmsərhəd olan Naxçıvan öz tarixi keçmişi, yeraltı və yerüstü sərvətləri, dahi şəxsiyyətləri ilə tanınıb. Bu gün blokada şəraitində olmasına baxmayaraq, qurub-yaradan, inamla irəli addımlayan qədim yurd yerimiz özünün yeni inkişaf mərhələsini yaşayır. Azərbaycan dövlətçiliyinin intişar tapdığı, son illərdə keçdiyi sürətli inkişaf yolu ilə, doğrudan da, dövlətçiliyin beşiyi olduğunu sübut edib. Əsrlərin, min illərin tarix yollarında heç vaxt yorulmayan, köhnəlməyən şəhər indi bu qədimliyi qoruyub saxlamaq prinsipi ilə yenilənən diyara çevrilib. Naxçıvan artıq bu gün yeni yolları, geniş prospektləri, əzəmətli binaları, möhtəşəm memarlıq kompleksləri ilə, inkişafın nəhəng addımları ilə irəliləyən qədim tarixli yeni şəhərdir.

Ulu Öndər deyirdi ki, Naxçıvan 3500 il tarixi olan Azərbaycan torpağıdır. Bu tarix çox zəngin hadisələrlə doludur. Bunların hamısı Azərbaycan üçün Naxçıvanın nə qədər qiymətli olduğunu həmişə göstərib, göstərir və gələcəkdə də göstərəcəkdir... Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının coğrafi vəziyyəti bu diyarda ölkəmizin torpaqlarının, sərhədlərinin qorunması üçün xüsusi əhəmiyyət kəsb edir. Naxçıvanlılar Ümummilli Liderin bu tövsiyəsinə həmişə sadiqlik göstəriblər. Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvanın dayandığından məmnunluğunu bildirən görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi quruculuq siyasətinə böyük sədaqət və ehtiramı bu gün hər bir sahədə görmək olar. Prezident cənab İlham Əliyevin də dediyi kimi: ***“Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün Ulu Öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax bu inkişafda təcəssüm etdirir”.***

Naxçıvanda bütün istiqamətlərdə başlanan yeni islahatlar praktik şəkildə özünü doğruldur və muxtar respublikanın davamlı inkişafını təmin edən düzgün yol seçilib. Ən əsası Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin rəhbərliyi ilə burada qısa zamanda əldə edilmiş nailiyyətlər, hər bir yüksəliş nümunəsi təsdiq edir ki, Prezident cənab İlham Əliyevin qarşıya qoyduğu tapşırıq və tövsiyələr Naxçıvanda vaxtında və layiqincə icra olunur. Ümummilli Lider Heydər Əliyevin xilas etdiyi, inkişaf yoluna çıxardığı Naxçıvan Muxtar Respublikasının da uğurlarının təməlində Ulu Öndərin əbədiyaşar ideyaları dayanır. Hazırda Prezident cənab İlham Əliyevin diqqət və qayğısı ilə inkişafının yeni mərhələsinə qədəm qoyan muxtar respublikada həyata keçirilən islahatlar cəmiyyət həyatının bütün sahələrinə dinamizm, canlanma gətirib, inkişafı daha da sürətləndirib. Bütün bunlar onu deməyə əsas verir ki, Naxçıvan tezliklə daha möhtəşəm uğurları ilə inkişafın yeni nümunələrini yaradacaq.

Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın xoş sabaha olan inamını qat-qat artırıb. Bu gün Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Ulu Öndər Heydər Əliyevin ölməz ideyalarını həyatda real təcəssüm etdirən müstəqil Azərbaycan Respublikası ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə işıqlı gələcəyə doğru inamla addımlayır. 44 günlük Vətən müharibəsində işğalçı düşmən üzərində qazanılan tarixi Qələbə bütün dünyaya milli həmrəyliyimizi nümayiş etdirdi. Belə böyük Qələbənin qazanılmasında vətənpərvərliyi həyat amalına çevirən naxçıvanlıların da böyük qəhrəmanlıqlar göstərməsini ölkə Prezidenti də öz çıxışlarında, müsahibələrində dəfələrlə bəyan edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2023-cü il 30 dekabr tarixdə imzalanmış “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncamda deyilir: *“Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Naxçıvanın uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir.*

*2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanın igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazmışlar”.*

Bu gün hərtərəfli inkişaf etdirilmiş, əsaslı şəkildə yenidən qurulmuş, düşmən qarşısında alınmaz qalaya çevrilmiş müasir Naxçıvan tarixinin yeni inkişaf mərhələsini yaşayır. Təbii ki, yaxın keçmişə qayıdıb son illərə nəzər saldıqda hansı çətinliklərdən, hansı mürəkkəb dövrdən bu xoş günlərə gəlib çıxdığımıza ekskurs edərkən hər birimizin qazanılan uğurlarla qürur duymağa mənəvi haqqımız olduğunu görürük. Çünki Naxçıvan artıq Ümummilli Liderimiz Heydər Əliyevin vaxtilə görmək istədiyi müasir və daim inkişaf edən Naxçıvandır! Ulu Öndərin göstərdiyi yolla qətiyyətlə irəliləyən, onun istəklərini, arzularını, gələcək haqqında planlarını addım-addım yerinə yetirən Naxçıvanda əldə olunan bütün nailiyyətlər Vətənə və xalqa xidmət nümunəsidir. Bütün bu əldə edilən uğurlar isə dostların sevincinə, düşmənlərin kədərinə, həsədinə səbəb olub. Düşmənlər başa düşüblər ki, nə qədər bu torpağı sevən, onun qədir-qiymətini bilən, təəssübünü çəkən insanlar var, bu qədim Oğuz-türk yurdu öz varlığını davam etdirəcək, cənnətməkana çevriləcəkdir. Min illərdir, tarixə meydan oxuyan Naxçıvan torpağı, onun zəhmətkeş, qurucu insanları dünya durduqca var olacaqdır.

**İsayə SEYİDOVA**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Naxçıvan Şəhər Nikah Evinin müdiri, ədliyyə müşaviri***

# YENİ tədris ili hədəflər

## Məktəb yolları, məktəb yolları

Yeni tədris ilinin başlaması, Bilik Günü təhsil ocaqlarında böyük təntənə ilə qeyd olunur. Şagirdlər və müəllimlər böyük həyəcan və sevinclə bu günün gəlib çatmasını gözləyirlər. Həmin gün yüzlərlə fidan məktəb kimi müqəddəs ocağın yolunu tutur. Məktəb – xalqın mənəvi beşiyidir. Məktəbdə tək yazıb-oxumağı, hesablamağı və müxtəlif elmlərin sirlərini öyrətmirlər. Məktəbdə, həmçinin yaşamağı və həyatın keşməkeşli yollarını öyrədərək gələcəyə hazırlayırlar. Məktəbdə Vətənin çoxəsrlik mədəniyyəti yaşayır. Bu müqəddəs ünvan bizə yalnız bilik qazandırmır, o həm də ailə olmağı, dost qala bilməyi öyrədir, insanın dünyagörüşünün formalaşmasına kömək edir.











Hər dəfə təhsil aldığım doğma məktəbimin qarşısından keçəndə ayaq saxlayıram, bir qədər fikrə gedirəm, düşünürəm. Qəlbimə qeyri-adi minnətdarlıq hissi hakim kəsilir. Çünki mənə yazıb-oxumağı öyrədən müəllimlərimin köməyi ilə ali təhsil pilləsinə yüksəlmişəm. O illərin gözəlliyindən nə qədər danışsam, nə qədər yazsam da, az olar. Neçə yaşa çatırıqsa çataq, məktəb adı çəkilən hər yerdə gözlərimizin içi gülür. Çünki uşaqlığımıza dair yaşanan ən gözəl illər o xoş anlardır. Məktəb illəri hər bir insanın ömründə şirin, xoş xatirələri ilə yadda qalır.

Qayğısız uşaqlığın keçdiyi illəri xatırladıqca insan sanki bir anlığa həmin günlərə qayıtmaq istəyir. Yadımdadır... Məktəbə ilk dəfə qədəm qoyduğum zaman ətrafa yad baxışlarla baxırdım. Mənim kimi digər sinif yoldaşlarım da məktəblə ilk tanış olduqları zaman valideynlərinin əllərindən tutub evə getmək istədiklərini söyləyirdilər, hətta mənimlə eyni partada əyləşən uşağın gözlərindən yaş süzülürdü. Amma üzü nurlu bir qadın ona yaxınlaşaraq sakitləşdirməyə çalışdı. "Sən bundan sonra mənim övladımsan", – deyib saçını tumarlayaraq göz yaşlarını sildi. Adına müəllim dediyimiz bu müqəddəs insan məktəb həyatının enişli-yoxuşlu yollarında nə az, nə çox düz 11 il bizə yol göstərir, sirdaş olur. Bilik Günündə bütün birincilər ilk müəllimi ilə tanış olmağın həyəcanı içərisində olur.

*Deyirəm, görəsən, cahanda kimin*
*Bir müəllim təki xidməti vardır.*
*Dahilər dərs deyən bir müəllimin,*
*Milyon könüllərdə hörməti vardır.*

Dünyada gözəl, nəcib peşələr çoxdur. Fəqət, bütün peşələrin fövqündə dayanan müqəddəs bir peşə də var. Bu, müəllimlikdir. İnsanlar həyatı boyu seçdikləri sənətdə qazandıqları, həyatda nail olduqları hər bir uğur üçün məhz müəllimə borcludurlar. Müəllim elm, bilik xəzinəsinin qapısını insanların üzünə açan bir varlıqdır.

Bu xəzinəyə inamla daxil olanlar həyatın enişli-yoxuşlu yollarında büdrəmir, öz biliyi və əməlləri ilə cəmiyyətin inkişafına töhfələr verirlər. Elə buna görə də dünyada müəllim əməyinin bənzəri yoxdur. Əgər bu gün biz bəşəriyyətin çatdığı yüksək inkişaf səviyyəsi, elmi-texniki nailiyyətlər barədə məmnunluqla söhbət açırıqsa, buna görə, ilk növbədə, müəllimlərə minnətdar olmalıyıq. İnsan cəmiyyətinin əzəli və sonu müəllim əməyi ilə bağlıdır. İnsanlar öyrənə-öyrənə kamilləşərək, təbiətin sirlərinə yiyələnərək onu ram edərək yeni-yeni kəşflərlə öz həyatlarını formalaşdırıblar.

*A məktəb yolları, məktəb yolları,*
*Sizi bir an belə unutmadım mən.*
*Könlüm min həsrətlə titrəyib əsir*
*Hər dəfə, hər dəfə keçəndə sizdən.*

Bu gün müasir Azərbaycan gəncliyi çox xoşbəxtdir. Dövlətimizin yetişməkdə olan gənc nəsil üçün yaratdığı şərait hər ötən il öz layiqli bəhrələrini verir. Biz naxçıvanlılar da qürur duyuruq ki, yaşadığımız bu qədim diyarda təhsilin inkişafına böyük önəm verilir. Naxçıvanın ən ucqar dağ və sərhəd yaşayış məntəqələrində belə yeni məktəb binaları inşa olunur, mövcud binalar yenidən qurulur, hər cür şəraitlə təmin olunaraq şagird və müəllimlərin istifadəsinə verilir. Məktəblərimizdə yeni tədris metodlarından istifadə diqqət mərkəzində saxlanılır. Bu isə həm müəllimlərdə, həm də şagirdlərdə ruh yüksəkliyi yaradır. Həyata keçirilən belə tədbirlər isə öz bəhrələrini verir. Hər il ali məktəblərə yüksək ballarla qəbul olunanların sayının artması da bunun ifadəsidir. İnanırıq ki, bu il yenicə məktəbə qədəm qoymuş bütün məktəblilər gələcəkdə ölkəmizin nurlu sabahına, işıqlı gələcəyinə öz töhfələrini verəcəklər. Bilik Gününüz mübarək!

**Bülbül QULİYEVA**

## Şəhid övladları olan birincilər



Ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da 15 sentyabrı səbirsizliklə gözləyirik. Yeni tədris ilində məktəbə ilk dəfə qədəm qoyan körpə fidanlar arasında düşmən qarşısında inamla dayanıb Vətənimizi, torpağımızı qoruyarkən canını fəda edən şəhidlərin övladları da var. Üzgün, lakin məğrur baxışlı şəhid övladları. Bu fidanlar qısa, lakin şərəfli bir ömür yaşayaraq əbədiyyətə qovuşmuş şəhidlərimizin bizə əmanətidir. Onların çöhrəsində həm sevinc, həm də kədər hiss olunur. Sevinclidirlər, çünki onlar da atalarının canı bahasına qoruduğu doğma, müstəqil Vətənimizdə təhsil alacaq, elmə-biliyə yiyələnərək dövlətimizə layiqli şəxsiyyət kimi yetişəcəklər. Elə şəhidlərimizin də Vətənə olan sonsuz sevgisi beşikdən, ana laylasından, ailədən, məktəbdən başlamırdımı?! Kədərlidirlər, çünki onlar da haqlı olaraq atalarının bu sevinclərinə şahidlik etməsini istərdilər. Təbii ki, sevinc və kədərin yanında bir hiss də var ki, bununla nə qədər öyünsələr, yenə də azdır. Bu hiss qürur hissidir. Şəhid övladı olmağın verdiyi qürur hissi.

Təhsilin ilk pilləsinə qədəm qoyan birincilər sırasında İkinci Qarabağ müharibəsində, Hadrut istiqamətində gedən döyüşlərdə şəhid olmuş Bağır Ələkbərovun övladı Əsəd Ələkbərov da var. Eyni adı daşıyan baba Ələkbərovla söhbətimizdə şəhidlərin əmanətlərinə dövlət qayğısından ağızdolusu danışır: "Sevincimin həddi-hüdudu yoxdur. Nəvəm – şəhidimizin əmanəti artıq böyüyüb və bu il birinci sinfə gedəcək. Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbdə təhsil alacaq. Yaxşı təhsil alaraq Vətənə layiqli övlad olacağına əminəm. Əminəm ki, atası kimi o da Vətənə öz borcunu təhsil sahəsindəki uğurları ilə verəcək. Sağ olsun, dövlətimiz, öz qayğısını bizdən əsirgəmir. Məktəbli geyimləri, dərs ləvazimatları, çanta dövlətimiz tərəfindən verilib. Dövlət hər zaman şəhid ailələrinin yanındadır. Allah şəhidlərimizin ruhunu şad etsin, qazilərimizə kömək olsun".



Daha bir şəhidimizin əmanəti balaca Şəms də birincilər sırasındadır. Atası Sahil Məmmədov torpaqlarımız uğrunda şəhidliyə ucalıb. O, Murovdağ silsiləsinin düşməndən təmizlənməsində xüsusi fəallıq göstərib. Övladının sevincinə şərik olan şəhid xanımı öz duyğularını belə ifadə edir: "Şəms Sahil Məmmədovdan yadigar qalan yeganə övladımdır. O bu dərs ilindən Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbində təhsil alacaq. Ona dövlətimiz tərəfindən hərtərəfli diqqət və qayğı göstərilir. Şəms üçün hər şeyin ən gözəlini arzu edirəm".

Hər iki balamızdan gələcəkdə hansı peşəyə yiyələnmək istədiklərini soruşduqda düşünmədən polis deyə cavab verirlər. Çünki Vətən keşiyində alışıb yanan, onu qorumaq üçün canından keçən mərd oğulların qanını daşıyır onlar.

*Şəhid əmanəti, sən əsla üzülmə. Atasızlığını hiss edəndə bu müqəddəs ad sənə təsəlli olsun. Dövlət və millət olaraq daim yanındayıq. Qədəm qoyacağın məktəb həyatı sənin üçün yeni-yeni uğurların başlanğıcı olsun.*

**Türkanə ƏSƏDOVA**

## Nübar Naxçıvanın Beynəlxalq Kembric Məktəbinin ilk şagirdlərindən biridir




Ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilən 2023-2027-ci illər üçün Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında Naxçıvan Dövlət Universitetinin beynəlxalq təhsil sisteminə inteqrasiyası və müasir tədris imkanlarının genişləndirilməsi də nəzərdə tutulub. Kembric Beynəlxalq Təhsil Sistemi ilə işləyən məktəbin yaradılması isə bu proqramın bir hissəsi olaraq təhsilin keyfiyyətinin artırılmasına xidmət edir. Biz də "Şərq qapısı" qəzeti olaraq yeni tədris ilində Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Kembric Məktəbində təhsil alacaq şagirdlərdən birinin təəssüratını öyrənmək qərarına gəldik. Yeni tədris müəssisəsinə qəbulun sevincini yaşayan Nübar Tağıyeva: "3 nömrəli tam orta məktəbin 5-ci sinfində oxuyarkən Naxçıvanda Kembric proqramlı məktəbin açıldığını eşitdim. Kembric Məktəbində təhsil almağa qərar verməyimin səbəbi məktəbin təhsil imkanlarının geniş olmasıdır. Bu yolda valideynlərim mənə böyük dəstək göstərdilər. Beləliklə, məktəbə müraciət etdik. Müraciətimiz qəbul olunduqdan sonra həmin məktəbin hazırlıq kurslarına qatıldım. Qəbul imtahanlarında yekun olaraq 54 bal toplayaraq arzuma çatdım. Artıq məktəbin tələb etdiyi formanın sifarişini vermişəm". Nübar bildirdi ki, çox sevincli və həyəcanlıdır. Çünki Naxçıvanda açılan beynəlxalq məktəbin ilk şagirdlərindən biridir. Burada təhsil aldığı müddətdə çalışacaq ki, məktəbə qəbul olmaq arzusunda olan şagirdlər ondan nümunə götürsünlər.

# Qüdrətdən səngərli Əlincə!



***Əcdadlarımızın mübarizə əzminin daşlaşmış salnaməsi, dönməzlik simvolu Əlincə! Tarixin hər səhifəsində izin, nəfəsin var sənin. Əzəmətlisən, əzəmətli olduğun qədər də sərt, məğrur, qüdrətli. İlk baxışda rəngsiz görünsən də, könül gözü ilə seyrinə çıxanlar üçün rəngarəngsən, füsunkarsan, bənzərsizsən, nadirsən.***

Məğrursan, azad bir məmləkətin qalib ordusutək. Vahiməlisən, əngin səmalarında dövrə vuran qartallar kimi. Güvən yerisən, görüşünə gələnlərin ruhuna hüzur bəxş edirsən. Sənin seyrinə çıxarkən dil heyrətdən susur, söz aciz qalır, sinəndə həzin bir nəğmə sənə laylay çalır. Bu nəğmə öz ahənginə səsləyir səni, ruhun dincəlir. Sənə baxmaqla, qulaq verməklə dinləyib anlamaq olmur səni. Çünki sən izaholunmazsan! Ancaq mürəkkəb olduğun qədər də, əslində, sadə, ancaq ruhunu sənə təslim edənlərə öz sirrini pıçıldayırsan...

Yalçın qayaların zirvəsində Vətəninə keşik çəkən çinar qamətli, dağ qüdrətli əsgərsən sanki. Şərəfli tarixin minillik əzəmətindən boylanır sənin. Əmir Teymur kimi yenilməz fatehin aramsız hücumlarına 14 il sinə gərən, heç vaxt qəddini yadlara əyməyən Əlincəqala! Sən təkcə şərəfli tariximizin şahidi olmamısan, eyni zamanda səni yaradan xalqın istedad və zəkasının məhsulu, mədəni səviyyəsinin meyarı, əcdadlarımızın gücünün, qüdrətinin sübutu, tariximizin ən səs-küylü, ən həlledici dönəmlərinin yadigarısan. Sən əyilməz bir xalqın, bir ulusun əmanətisən. Sən açılmayan sirli bir aləm, tarixin gizli həqiqətisən. Sənin məğrur sıldırımlarının arxasında igidlərimiz cəsarətlə sinələrini düşmənə sipər edib. Mərd ərənlər şahin olub düşmənin başına şığıyıb, od ələyib. Bu şücaətlə sən biləklərdə güc olub, yaddaşlara yaddaş olub əsrləri yola salmısan. Neçə-neçə qoşunların qarşısında hünərlə dayanmısan.

Bir zamanlar hakim xanədanlara – Səlcuqlara, Atabəylərə, Səfəvilərə istehkam olan əzəmətli Əlincəqala! Sən dövranın gərdişinə mətanətlə sinə gərmisən, neçə sınaqlardan keçmisən, amma mətin dayanmısan, yenilməmisən! Keşməkeşli tarixini vərəqlədikcə hünərinə baş əyirik mübarizliyinin! Əcdadlarımızın əyilməzlik, mərdlik, şücaət rəmzi Əlincəqala! Oğuz elinin ərənlərinə şərəf zindanı olmusan, sən! Ulularımız doğma torpağı qorumağın, Vətən üçün savaşmağın, döyüşməyin, yeri gəlsə, ölümə belə getməyin nümunəsini səndə yaradıb. Vətən eşqilə yaşayanların azadlıq uğrunda mübarizəsinin, işğalçılara qarşı qanlı döyüşlərin şahidi olan, tarixin keşməkeşlərinə mətinliklə sinə gərən Əlincəqala! Min illərdir, tarix ümmanında yol alanlara sən mayak olmusan!

***P.S.*** Bu gün Naxçıvanda qədim tariximizin şahidi olan abidələrimizə xüsusi diqqət göstərilir. Bu həm də Ümummilli Liderimizin tarixi keçmişimizin yaşadılması sahəsində gördüyü işlərin davamıdır. Tarixi keçmişimizə göstərilən hörmət və ehtiramın nəticəsidir ki, Naxçıvan ərazisində mövcud olan bütün abidələr qorunur, mühafizə altına alınır. Elə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Əlincədağ təbiət abidəsinin təşkil edilməsi haqqında qəbul edilən qərar da bu amala xidmət edir. Bu qərar daş yaddaşımıza, ulu keçmişimizə, milli-mənəvi dəyərlərimizə göstərilən diqqətlə yanaşı, xalqa tarixi dəyərlərimizin ölməzliyini təlqin edir. Qərara əsasən Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində, Əlincəçayın sağ sahilində və Zəngəzur silsiləsinin suayırıcısındakı Aracı yüksəkliyindən cənub-qərbə ayrılan Dibəkli qolunun eyni istiqamətli Qırxlardağın şərq yamacında yerləşən, hündürlüyü 1821,4 metr olan Əlincə dağına respublika əhəmiyyətli təbiət abidəsi statusu verilib və həmin dağ Əlincədağ təbiət abidəsi adlandırılıb. İnanırıq ki, belə əhəmiyyətli qərarla tariximizin mübarizlik rəmzi olan Əlincəqalanın dərin qatları yenidən vərəqlənəcək, bu qərar Əlincəqalaya yeni nəfəs gətirəcək.

**Gülcamal TAHİROVA**

**Belinə kəmər kimi**
**Bağlayıb sərt daşları.**
**Ehtiyat əsgər kimi**
**Saxlayıb mərd daşları.**
**Sanki qoyubdu dincə –**
**Əlincə.**

**Dörd qaplandı hovuzlar,**
**Alır buluddan bacı.**
**Zirehlənib hasarlar,**
**Qurulub taxtı-tacı**
**Miladdan çox-çox öncə –**
**Əlincə.**

**Vuruşub zaman-zaman,**
**Düşməni əldən düşüb.**
**Olubdu yurda qalxan,**
**Miranşah dildən düşüb.**
**Sıxıb Teymuru küncə –**
**Əlincə.**

**“Şahtaxtı” – şah qalası,**
**Dizində ərlər yatır.**
**Şırımlanıb yaxası,**
**Köksündə sirlər yatır.**
**Daş alnında düşüncə –**
**Əlincə.**

**Burda Atabəy Özbək**
**Qalaya bel bağlayıb.**
**“Xəzinəni” sonadək**
**Məlik Tahir saxlayıb.**
**Döyüşübdü ölüncə –**
**Əlincə.**

**Cəlair dövlətinin**
**Himni, bayrağıdır o.**
**Mömin Şərəfəddinin**
**Yaddaş çırağıdır o**
**Təzkirəmdir bütüncə –**
**Əlincə.**

**Muxtar Qasımzadə**



## Muxtar respublikada Hemodializ Mərkəzi yaradılıb



Böyrəklərin müxtəlif iltihabı, eləcə də bəzi irsi, infeksion, hipertoniya, sistem xəstəlikləri, qida və dərman zəhərlənmələri, şəkərli diabetin və cərrahi müdaxilələrin ağırlaşmaları və bir sıra digər xəstəliklər çox vaxt kəskin və ya xroniki böyrək çatışmazlığı ilə nəticələnir. Xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrə terminal mərhələsi diaqnozu ilə hemodializ müalicəsi tətbiq olunur. Son vaxtlar bu xəstəliyə düçar olanların arasında kiçikyaşlı uşaqların da sayı artmaqdadır.

Muxtar respublikada fəaliyyətin düzgün koordinasiya edilməməsi səbəbindən hemodializ şöbələrinin fəaliyyətində nöqsanlar dializdən asılı olan, xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin səhhətinə təsir edirdi.

Muxtar respublikada səhiyyə sisteminin keyfiyyətcə yeni dövrün tələblərinə uyğunlaşdırılması və əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir tibb infrastrukturunun yaradılması, həyata keçirilən ardıcıl, sistemli islahatların nəticəsi olaraq xroniki böyrək çatışmazlığı olan xəstələrə göstərilən ixtisaslaşdırılmış tibbi yardımın yaxşılaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikasının Hemodializ Mərkəzi yaradılıb. Hemodializ xidmətinin yenidən təşkili adekvat səviyyəli personalla komplektləşdirmə, dializ parametrlərinin düzgün təyin olunması göstərilən tibbi xidmətin keyfiyyətini artırmaqla yanaşı, mövcud sahədə əziyyət çəkən vətəndaşlarımızın keyfiyyətli tibbi xidmətlərdən faydalanmasına şərait yaradacaqdır. Həmçinin mərkəzin yenidənqurulması və təmir olunması ilə yanaşı, pasiyentlərə uzun seanslarda keyfiyyətli xidmət göstərmək üçün qurğuya inteqrasiya olunmuş Wi-Fi və qulaqcıq girişli HD keyfiyyətli TV-si olan 47 ədəd 3 idarəetmə mühərrikli hemodializ kresloları, tibbi və texniki xüsusiyyətlərə malik ən son texnologiyaya uyğun istehsal olunmuş 33 ədəd hemodializ cihazları ilə təmin olunması üçün satınalma prosesləri davam etməkdədir.

## Naxçıvanda ilk dəfə “Sığorta Festivalı” keçirilib

*Sentyabrın 6-da Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosunun birgə əməkdaşlığı çərçivəsində Naxçıvanda ilk dəfə “Sığorta Festivalı” keçirilib. “Həyat sığorta ilə rahat!” devizi altında təşkil olunan festivalda əvvəlcə təşkilati dəstəyə görə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinə təşəkkür edilib. Sonra layihənin əhəmiyyəti, festivalda iştirak edən sığorta şirkətləri barədə məlumat verilib.*







Naxçıvan Dövlət Milli Dram Teatrının qarşısında keçirilən festivalda Naxçıvan şəhər sakinləri və qonaqlar üçün hazırlanan proqram maarifləndirici və əyləncəli anlarla zəngin olub. Festival ərzində iştirakçılar “Ada Band” rok-pop qrupu, DJ tərəfindən təqdim olunan enerjili musiqilərlə rəqs edərək əsl bayram əhvali-ruhiyyəsi yaşayıb, eyni zamanda sığorta növləri ilə bağlı səsləndirilən suallara cavab verməklə sürpriz hədiyyələr qazanıblar.

Qeyd edək ki, “Sığorta Festivalı” ölkənin aparıcı sığorta şirkətlərini bir araya gətirərək müxtəlif sığorta məhsulları haqqında əhalini maarifləndirməyi hədəfləyir. Festivalın açılış mərasimi avqustun 17-si Bakı şəhərində baş tutub, tədbir avqustun 24-ü Sumqayıtda, 30-u Lənkəranda keçirilib. Sentyabrın 14-ü Gəncədə təşkil olunacaq festivalın bağlanış mərasimində Hiss sevilən ifaları ilə çıxış edəcək.

Xatırladaq ki, Azərbaycanda ilk “Sığorta Festivalı” 2023-cü ildə respublikanın 10 şəhərində keçirilib və böyük maraqla qarşılanıb. Bu festival Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 21 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Sığorta sektorunun inkişaf etdirilməsi üçün görülməli işlərlə bağlı Tədbirlər Planı” çərçivəsində təşkil olunur. Tədbir geniş əhali qruplarının və biznes nümayəndələrinin sığorta sahəsində bilik və təsəvvürlərinin artırılması və onların sığorta xidmətlərinə cəlb olunması məqsədilə həyata keçirilən genişmiqyaslı maarifləndirmə layihəsinin bir hissəsidir.

## Naxçıvan şahmatçıları tarixi bir uğura imza atıblar

Türkiyənin Bitlis şəhərində 1-ci Beynəlxalq Şahmat Festivalı keçirilib. Festivalda 10 ölkədən 400 zəka sahibi mübarizə aparıb ki, onlar arasında naxçıvanlı zəka sahibləri də olub.

A qrupunda yarışan zəka sahiblərimizdən beynəlxalq qrossmeyster Urfan Sevdimalıyev və Beynəlxalq usta Pərviz Qasımov 3-8-ci yerləri bölüşüblər. FIDE ustası Nəsrin Babayeva qadınlar arasında bürünc medal qazanıb.

B qrupunda mübarizə aparan Şərur şahmatçısı Xatun



Nəcəfova eyni uğuru təkrarlayıb və 3-cü olub.

Yaş kateqoriyalarında çıxış edən zəka sahiblərimiz də uğurlu nəticələr əldə ediblər. Belə ki, 8 yaşlı şahmatçılar arasında Uğur Qəribli və 10 yaşlı şahmatçılar arasında Xanım Rzayeva festivalda 3-cü olublar.

10 yaşlı şahmatçılar arasında Yasin Əzimov Malatyadakı uğurunu təkrarlayaraq çempion adını qazanıb. Eyni uğuru 12 yaşlı şahmatçılar arasında Lətif Muradlı da təkrarlayıb.

Sonda zəka sahiblərimiz təşkilatçılar tərəfindən kubok, medal və pul mükafatı ilə mükafatlandırılıblar.

Qeyd edək ki, A qrupunda mübarizə aparan Mirsaleh Seyidli turnirə 39-cu sırada başlamasına baxmayaraq, sonda 19-cu olub. O bununla Beynəlxalq Əmsalını +77 vahid artıraraq 2000 əmsalını keçib və ustalığa namizəd (CM) adını qazanıb.

## “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş “Nə? Harada? Nə zaman?” intellektual oyunu” layihəsi həyata keçirilib

Azərbaycan Respublikası Gənclər Fondunun “İdeyanı reallaşdır – 2023” gənclərin fərdi layihələri üzrə qrant müsabiqəsinin qalibi Telman Həsənovun “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş yalnız milli mövzulu sualları əhatə edən “Nə? Harada? Nə zaman?” intellektual oyunu” adlı layihəsinin Naxçıvan Şahmat Mərkəzində açılış mərasimi keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyev və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Gənclər Fondunun Naxçıvan filialının direktoru Arzu Qasımov ölkəmizdə həyata keçirilən uğurlu gənclər siyasətindən, fond tərəfindən gənclərə yaradılan imkanlardan danışıb, qrant müsabiqələrinin gənclərin fəallıqlarının artırılmasında xüsusi əhəmiyyətə malik olduğunu bildirib. Qeyd edib ki, bu cür müsabiqələr Azərbaycan gəncliyinin inkişafında xüsusi önəm kəsb edir.

Vurğulanıb ki, bu layihə “İdeyanı reallaşdır” qrant müsabiqəsi çərçivəsində icra olunan 2-ci layihədir və hələ qarşıdakı günlərdə bir neçə layihənin də naxçıvanlı gənclər tərəfindən reallaşdırılması nəzərdə tutulub. Arzu Qasımov layihə rəhbəri və komandasını qazandığı uğura görə təbrik edib və layihənin işinə uğurlar arzulayıb.

Çıxış edən layihə rəhbəri Telman Həsənov Gənclər Fondu tərəfindən gənclərə göstərilən qayğıya görə təşəkkür edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd olunması haqqında” Sərəncamına uyğun olaraq tariximizin, milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin, mənəvi irsimizin müxtəlif yollarla gənclərə aşılanmasını və gələcək nəsillərə ötürülməsini təmin etməkdən ibarətdir.

Sonra 20 komandanın mübarizə apardığı intellekt yarışına start verilib. Milli mövzuda 50 sualın səsləndirildiyi yarışın nəticələrinə əsasən ən çox xal toplayaraq qalib olan komandalar diplom, medal, kubok və simvolik hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, layihənin donoru Azərbaycan Respublikası Gənclər Fondu, tərəfdaşı isə fondun Naxçıvan filialıdır.



## Naxçıvan Dövlət Universitetinin də təşkilatçısı olduğu “Türk Dövlətlərinin I Tibb Konqresi (II Tibbi Forum)” keçirilib

Sentyabrın 5-də Türkiyənin İstanbul şəhərindəki Yeditəpə Universitetində Naxçıvan Dövlət Universitetinin də təşkilatçısı olduğu, Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Şimali Kipr Türk Cümhuriyyəti və Türkmənistanın bir sıra universitetlərinin iştirakı ilə “Türk Dövlətlərinin I Tibb Konqresi (II Tibbi Forum)” öz işinə başlayıb.

Konqresin açılış tədbirində təşkilat komitəsinin koordinatoru, prof.dr. Erkut Attar, Yeditəpə Universitetinin rektoru, konqresin həmsədri, prof.dr. Canan Aykut Bingöl, Yeditəpə Universitetinin qurucusu Bedreddin Dalan, Naxçıvan Dövlət Universitetinin rektoru, konqresin həmsədri Elbrus İsayev, Səmərqənd Dövlət Tibb Univetsitetinin rektoru, prof.dr. Cəsur Rzayev, KKTC Yakın Doğu Universitetinin rektoru, prof.dr. Tamer Şanlıdağ, Bişkek Beynəlxalq Tibb İnstitutunun rektoru prof.dr. Samigullina Alfiya, Asfendiyarov adına Qazax Milli Tibb Universitetinin prorektoru prof. dr. Abılay Baimaxanov, Daşkənd Pediatriya Tibb İnstitutunun prorektoru prof.dr. Səidə Səidxocayeva, Türkmənistan Dövlət Tibb Universitetinin prorektoru, prof.dr. Ayboleki Taçmuxəmmədova, Azərbaycan Tibb Univetsitetinin prorektoru prof.dr. Rauf Bəylərov, Azərbaycan Endoskopik və Laparoskopik Cərrahlar Cəmiyyəti İB İdarə Heyətinin sədri prof.dr. Müşviq Həsənov çıxış ediblər.







Elbrus İsayev qeyd edib ki, Naxçıvan Dövlət Universiteti kimi belə bir mötəbər tədbirin təşkilatçıları sırasında olmaq bizə qürur verir. Bu konqres Türk dünyasının tibb sahəsindəki əməkdaşlığının möhkəmləndirmək, ortaq problemlərə həll yolları tapmaq və tibb təhsilinin daha yüksək səviyyəyə qaldırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bildirilib ki, 2022-ci ildə Naxçıvan Dövlət Universitetində keçirilən I Beynəlxalq Tibbi Forum bizə göstərdi ki, türk dövlətləri tibb elmi və təhsil sahəsində geniş əməkdaşlıq imkanlarına malikdir. Həmin forumda tibb sahəsində çoxsaylı məsələlər müzakirə olunmuş, təcrübə mübadiləsi aparılmış və birgə layihələr üçün zəmin yaradılmışdı. Bu forumun davamı olaraq türk dövlətlərinin qabaqcıl universitetlərinin nümayəndələri ilə bir araya gəlmək və birgə addımlar atmaq sevindiricidir.

Rektor bildirib ki, konqres tibb sahəsində qabaqcıl elmi nailiyyətlərin paylaşılması, yeni texnologiyaların tətbiqi, həmçinin Türk dünyasında tibbin inkişafı üçün ortaq strategiyaların müəyyənləşdirilməsi üçün bir platformadır. İnanırıq ki, bu tədbir nəticəsində Türk dünyasının tibb sahəsindəki potensialı daha da genişlənəcək və birgə səyləri ilə gələcək nəsillərə daha sağlam və rifahlı bir cəmiyyət bəxş edəcəklər.

Diqqətə çatdırılıb ki, Naxçıvan Dövlət Universiteti bu cür tədbirlərin təşkilində iştirak etməyə davam edəcək. Eyni zamanda türk dövlətləri arasında əməkdaşlığın gücləndirilməsi üçün təhsil və elmi-tədqiqat sahəsində daha geniş əməkdaşlıq layihələrinə dəstək veriləcək.

Vurğulanıb ki, bu konqres bütün iştirakçılar üçün faydalı olacaq və gələcəkdə türk dövlətlərinin tibb sahəsində yeni uğurlara imza atmasına təkan verəcəkdir.

Konqresin açılışında 2022-ci ildə Naxçıvan Dövlət Universitetində keçirilmiş I Tibbi Foruma həsr olunmuş videoçarx təqdim edilib.

Açılış tədbirinin bədii hissəsində Azərbaycan və Özbəkistanın Xalq artisti Gülyanaq Məmmədovanın, “Qarabağ” muğam qrupunun rəhbəri, Xalq artisti, Milli Konservatoriyanın professoru Mənsum İbrahimovun rəhbərliyi ilə muğam heyətinin, Türk Sənət Musiqisinin solistləri Eda Karaytuğ, İlker Çelik, Nigar Akan və digər sənətçilərin ifalarında konsert proqramı təqdim olunub.

Açılış tədbirinin ardınca konqres bölmə iclasları ilə öz işini davam etdirib.



# 100 ilin qəhrəmanları

*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Naxçıvan şəhərindən olan şəhidimiz Elnur Zeynalovun anası Məlahət Zeynalovanın, Culfa rayonunun Əbrəqunus kəndindən olan şəhidimiz Rauf Əliyevin anası Xavər Əliyevanın və Culfa rayonunun Əbrəqunus kəndindən olan şəhidimiz Miryasin Seyidovun anası Sahilə Seyidovanın övladları haqqında xatirələri yer alıb.*

## Elnur Elsevər oğlu Zeynalov

*(28.07.1994-31.10.2020)*

## Oğlum torpaqlarımızın alınmasında qəhrəmanlıq göstərib





Elnur körpə yaşlarından ətrafındakıların sevimlisinə çevrilmişdi. Sanki balacalığından onda qəhrəmanlıq var idi. Uşaq vaxtlarından silahla oynamağı çox sevirdi. Özünə taxtadan silahlar düzəldirdi. Deyirdim, eləmə, barmağını, əllərini yaralayırsan. Deyirdi ki, böyüyüb erməniləri öldürəcəyəm, onlar bizim düşmənimizdir. Elnur orta məktəbi bitirməmiş hərbi liseyə daxil oldu. Hərbi liseyi özü seçmişdi. Sevərək gedib zabit peşəsinə yiyələndi. Bir müddət Ağstafada işlədi. İstəyirdi ki, Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlısına getsin. May ayı idi. Dedi ki, ana, mən daha Bakıya gedəcəyəm, işim dəyişilir oraya. Ehsan bişirib payladım. Heç bilmədim ki, mənim balam müharibəyə gedir.



Müharibə başlayanda tezdən qardaşına zəng vurub deyib ki, Ruslan, biz gedirik. Ruslan dedi ki, ana, Elnur gedir. Zəng edib danışdım. Gördüm çox səs-küy var. Dedim ki, nə səsdi elə? Sanki toya gedirsiniz. Cavab verdi ki, ana, elə toya gedirik. Dedim ki, getdiyiniz yerə çatanda xəbər edərsən. Saat, təqribən, 12 olardı, zəng gəldi. Dedi ki, ana, çatmışıq. Heç ağlım kəsmədi soruşam ki, bala, haraya çatmısınız? Sən demə, odun-alovun içindədir balam. İmkanı olduqca zəng edirdi, danışırdıq. O şəraitdə belə çox mətin, məğrur danışırdı. Zərrə qədər müharibə qorxusu yox idi. Qubadlı azad olunanda dedi ki, ana, məni televizorda göstəriblər, baxmısan? Dedim ki, yox. Dedi "Youtube"a bax, biz məruzə etmişik cənab Ali Baş Komandana. Tez açıb izlədim və orada gördüm. Sonra Xocavəndə getdilər, ondan sonra danışa bilmədik. Oktyabrın 31-i zəng gəldi, baxdım ki, Elnurdu. Dedi, haradasan? Mən də iməcilikdən gəlirdim, dedim ki, evə çatıram. Səsindən hiss etdim ki, çox yorğundu.

Müharibədən 4 il keçib. Artıq azad olunmuş torpaqlarda böyükhəcmli tikinti-quruculuq işləri aparılır. Sevinirik ki, insanlar belə tədbirlərin başa çatdırıldığı ərazilərə köçürülürlər. Bir də ona sevinirik ki, oğlum da o torpaqların alınmasında qəhrəmanlıq göstərib, şəhid olub. Bütün şəhidlərimizin ruhları şad olsun.

## Rauf Səxavət oğlu Əliyev

*(04.06.1994-22.10.2020)*

## Onunla qürur duyuram





Biz valideynlərini heç zaman incitmədi. Ali təhsilini Azərbaycan Texniki Universitetində almışdı. İxtisasca kompüter mühəndisi idi. Bu istiqamətdə olan biliklərini möhkəmlətmək üçün əlavə kurslara, məşğələlərə də qatılırdı. İştirak etdiyi bütün tədbirlərdə fərqlənirdi. Universiteti də əla qiymətlərlə bitirmişdi. Nə gecəsi vardı, nə də gündüzü, ancaq oxumaq eşqi ilə yaşayırdı. Hərdən boynuna sarılıb deyirdim, Rauf, sənin tayların evlidir, uşaq sahibidirlər. Mənim də arzularım var. Mən də toyunu görmək istəyirəm. Deyirdi, ana, hər şeyin öz vaxtı var.



Hərbi xidmətini cəbhə bölgəsində çəkmişdi. Hərbi xidmətdə olarkən, Aprel döyüşləri başlamışdı. Döyüşlərdə iştirak etməsini istəməmişdi biz də bilək. Əsgərlikdən gələndən sonra bu haqda söhbətlər edirdi. Lələtəpə yüksəkliyini düşməndən necə azad etməsindən danışırdı. Tovuz döyüşləri başlayanda dedi ki, ana, bilirsənmi Polad Həşimov kimdir? Soruşanda qayıtdı ki, biz Aprel döyüşlərində onun rəhbərliyi altında iştirak etdik.

İxtisası üzrə hər yerdə seçilirdi. Onun hazırladığı proqram təminatları bu gün də istifadə olunur. Hər dəfə sertifikat alanda elə də sevinmirdi. Deyirdi ki, hələ bu nədir ki? Biz isə çox qürurlanırdıq. Xaricə getmək istəyirdi, atası icazə vermədi. Dedi ki, hər şeyin, yaxşı işin var, iki qardaşsınız, gözümün önündə olun. Axırıncı dəfə də ən yüksək beynəlxalq banka onlayn olaraq imtahan verdi. Oradan da uğurla keçdi, amma o sevincini bircə gün yaşadı.

Səhər-səhər televizoru açdım. Müdafiə Nazirliyinin mətbuat katibi yayımda idi. Rauf yatmışdı. Dedim ki, deyəsən, müharibə başlayır. Dedi, ana, canın sağ olsun. Almalıyıq torpaqlarımızı. Sentyabrın 29-da cəbhəyə yola düşdü. Ağlımıza da gəlmirdi ki, bu bizim son görüşümüz olacaq. Özümə yer tapa bilmirdim o gün. Cəbhədə olarkən bir neçə dəfə telefon əlaqəsi yaratdı. Razılıqla danışırdı ki, torpaqlarımızı ala-ala irəliləyirik. Sonuncu danışığımız da şəhid olduğu günə təsadüf etdi. Atışma səslərindən heç cür danışmaq olmurdu. Elə həmin gün 4-ün yarısı şəhid olmuşdu. Döyüş yoldaşları evimizə gəlmişdilər. Onun necə cəsarətli, qorxmaz olduğundan danışırdılar. Biz oğlumuzla fəxr edirik.

## Miryasin Mirqafar oğlu Seyidov

*(23.12.1998-24.10.2020)*

## Qorxmaz, mətin oğul idi





Miryasin hərbiyə meyilli uşaq idi. Hələ uşaq vaxtlarından bunu hiss etmişdim. Düşünürdüm ki, bu yaşda olan uşaqda bu arzu necə yaranıb? Nə isə... Onun necə vətənpərvər böyüdüyünü görürdüm. Elə o vaxt da qürur hissi keçirirdim. Bir dəfə 20 Yanvar şəhidlərimizin anım tədbirində soyuq havada əlində bayrağı çox saxlamışdı. Balaca oğlum gəlib dedi ki, Miryasinin əllərini az qala don vuracaqdı. Çünki həmin gün hava çox şaxtalı idi. Kaş o günlərə qayıdardıq... Oğlum mənim üçün sanki bir mələk idi. Atası hər içəri daxil olanda yerindən dik qalxardı. Qucaqlayardı atasını. Deyərdi ki, atam içəri min dəfə də girsə, eləcə qalxacağam. Ondan sonra da iki qardaşı var. Deyərdi ki, elə edirəm onlar da görüb-götürsünlər, valideynin ayağına qalxsınlar. Uşaqlıqdan belə böyüyürdü. Qonşulara, qohum-əqrəbaya da hörmətlə yanaşırdı. Onlara ehtiram göstərirdi. Miryasini tanıyanlar həmişə ondan razılıqla danışırdılar. Bu da məni sevindirirdi. Sevinirdim ki övladım ailəmizə layiq böyüyür. Düşünürdüm ki, o, həyatda özünə layiqli yer tapacaq.

Böyüdü, məktəbi bitirdi. Xüsusi təyinatlıya daxil oldu. Müharibəyə də könüllü olaraq qatıldı. Gedib müraciət etmişdi ki, mən müharibəyə getmək istəyirəm. Təlimə yeni başladığı üçün icazə verilməmişdi. Yenidən gedib müraciət etmişdi. Demişdilər ki, hazır ol, oktyabrın 17-si yola çıxacaqsınız. 16-sı o evə gəldi. Ancaq demədi ki, Bakıya uçacaqlar. Qorxmaz, mətin oğul idi. Sonuncu dəfə ayın 17-si atasına zəng edib ki, bizi aparırlar, döyüşə gedirik.

Bir həftə idi zəng çatmırdı. Nə gecəm, nə də gündüzüm var idi. Allah heç kimə bu cür dərd göstərməsin. Qaynımdan eşitdim o xəbəri. Ondan öncə də yuxu görmüşdüm. Narahatlığım əbəs deyilmiş. Eşitdik ki, Qırmızıbazar istiqamətində, oktyabrın 24-ü Tuğ kəndində şəhid olub. Miryasin kimi şəhidlərimiz çoxdur. Torpaqlarımız məhz onların qəhrəmanlığı, igidliyi ilə alındı. Bu gün hər bir şəhid valideyni qürur duyur ki, ərazi bütövlüyümüzü məhz onların ölümün gözünə dik baxmaları ilə əldə etmişik. Ruhları şad olsun.



# Ədəbiyyat xəzinəmizin əbədi sözə çevrilən böyük qələm sahibi

## *105 yaşlı Xalq yazıçımız Hüseyn İbrahimova ithafən…*



Yorulmaz ədəbi fəaliyyəti ilə yaddaşlarda qalan Xalq yazıçımız Hüseyn İbrahimov ötən əsrin 50-ci illərindən başlayaraq Azərbaycan ədəbiyyatına sanballı əsərlər bəxş etmiş, 100-ə yaxın hekayə, 20-dən çox novella, 3 pyes, 8 povestlə məhsuldar yazıçı kimi hörmət qazanmışdır. Hüseyn İbrahimov 1919-cu ildə Cəlil Məmmədquluzadənin "sahibi-mənsəb və ziyalılar vətəni" adlandırdığı, ədəbiyyat, mətbuat və incəsənətimizə qüdrətli simalar bəxş etmiş Araz çayı sahilində yerləşən Şahtaxtı kəndində dünyaya gəlmişdi. Qədim Şahtaxtı kəndində keçirdiyi acılı-şirinli günlər, yazıçının uşaqlıq yaddaşına həkk olunmuş zəngin həyat hadisələri onun əsas həyat məktəbi olmaqla bərabər, həm də gələcək yaradıcılıq yoluna yön vermiş, ona gələcəyin istedadlı yazıçısı kimi yeni cığırlar açmışdı…

Hüseyn İbrahimov 1940-cı ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirmiş, təhsil aldığı illərdən başlayaraq yaradıcılıqla məşğul olmuşdu. Elə ilk qələm təcrübələri də bu dövrlərdə meydana çıxmışdı. Təhsilini bitirdikdən sonra Şərur rayonunun Sədərək kənd orta məktəbinə təyinat alması (1940), burada keçən qısamüddətli pedaqoji fəaliyyət dövrü isə istedadlı yazıçının Şahtaxtı məktəbinin şagirdi ikən başlanan, texnikumda genişlənən müşahidələrinin dərinləşməsinə və zənginləşməsinə şərait yaratmışdı. Əvvəlcə Noraşen rayonundakı (indiki Şərur rayonu), daha sonra isə Naxçıvan Muxtar Respublikasındakı (1943-1947) Gənclər Təşkilatına rəhbərlik etməsi gənc Hüseyn İbrahimovun müxtəlif təbəqədən olan insanların həyatına daha yaxından bələdliyinə yol açmışdı.

Görkəmli yazıçının tərcümeyi-halına nəzər saldıqda ilk olaraq onun məhsuldar fəaliyyəti diqqətimizi cəlb edir. Belə ki, Hüseyn İbrahimov hələ gənclik illərindən "Şərq qapısı" qəzetinin redaktor müavini (1947-1949) və Naxçıvan Nazirlər Soveti yanında Radio Verilişləri Komitəsinin sədri (1949-1954) vəzifələrində işləmiş, ardınca "Şərq qapısı"nın baş redaktoru təyin edilmişdir. Qeyd etmək yerinə düşər ki, yazıçının 1961-1965-ci illər, yəni "Şərq qapısı" qəzetindəki redaktorluq fəaliyyəti, gərgin və fədakar işi təkcə mətbuatın inkişafı ilə bağlı olmamış, bu müddət həm də onun cavan yazıçı kimi həyatın dərin qatlarını, ictimai münasibətlərin kəskinliyini, xarakterlərin daxili mürəkkəbliyini və incəliklərini öyrənməsinə geniş şərait yaratmışdı.

Yazıçının həyatında, tərcümeyi-halında, taleyində dövlət idarəçiliyi sahəsindəki fəaliyyəti xüsusi yer tutur. Təsadüfi deyildir ki, o, bir çox qələm dostlarından fərqli olaraq XX əsr Azərbaycan ədəbi-ictimai fikri tarixində dövlətçilik fəaliyyəti ilə yazıçılıq işini məharətlə uzlaşdırmağı bacaran sənətkarlardan biri kimi tanınır. Hüseyn İbrahimovun Naxçıvan Vilayət Partiya Komitəsində mühazirəçilər qrupunun rəhbəri (1960-1961), Təbliğat və Təşviqat şöbəsinin müdiri (1965-1970), Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri (1970-1975) vəzifələrindəki fəaliyyəti, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri (1963-1970) kimi məsul dövlət işində təmsil olunması həm də onu özünəməxsus ictimai baxışlara malik olan peşəkar siyasi düşüncəli ziyalı, o cümlədən ictimai həyatla həmahəng fəaliyyət göstərən yazıçı səviyyəsinə çatdırmışdır. Görkəmli ədibin siyasi fəaliyyəti onun yaradıcılıq manerasına da təsir göstərmiş, romanlarında, povest və hekayələrindəki bir çox qəhrəmanlar bu dünyanın – ictimai-siyasi həyatın real obrazlarından birbaşa ədəbi həyata gətirilmişdir.

Akademik İsa Həbibbəyli Hüseyn İbrahimovun 90 illik yubileyinə həsr etdiyi "Şəxsiyyətin və sənətin vəhdəti" adlı məqaləsində yazır: "Hüseyn İbrahimovun həyatı həmişə Yazıçılar Birliyi ilə üzvi surətdə bağlı olmuşdur. O, 1952-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan şöbəsinin məsul katibi (1980-1997) vəzifəsində çalışdığı illərdə o, regionda milli ədəbiyyatın inkişaf etdirilməsi, yeni yazıçılar nəslinin formalaşdırılması istiqamətində səmərəli fəaliyyət göstərmişdir. Hüseyn İbrahimovun Naxçıvan Yazıçılar Birliyinin sədri kimi (1997-2010) fəaliyyəti də müstəqillik dövründə Naxçıvanda yeni ədəbi mühitin canlandırılmasına xidmət edir. Azərbaycan Yazıçılarının əllinci illərdən sonra keçirilmiş bütün qurultay və plenumlarının iştirakçısı olan Hüseyn İbrahimov həmişə ədəbiyyatın milliliyi, xəlqiliyi, həyatiliyi, təbiiliyi uğrunda mübarizə hərəkatında, sadə kənd adamları və ziyalılarının obrazlarının ön mövqeyə çıxarılmasında fəal görünmüşdür".

Yaradıcılığa keçmiş sovet hakimiyyətinin tüğyan etdiyi bir dövrdə "O, düşməndə qoymadı anasının qanını" adlı şeiri ilə qədəm qoyan Hüseyn İbrahimovun gənclik illəri çox çətin dövrlərə təsadüf etmişdi. Bir tərəfdən amansız Stalin repressiyalarının başlaması, Azərbaycan ziyalılarının kütləvi şəkildə həbsə, sürgünə, hətta ölümə məhkum edilməsi, digər tərəfdən də İkinci Dünya müharibəsinin alovlanması onun kimi bir çox ziya sahiblərimizin həyatını alt-üst etmişdi. Soydaşlarımızı öz ata-baba yurdundan didərgin etdirən, qələm sahiblərimizə olmazın əzab-əziyyətlər yaşadan sovet hakimiyyəti bütün sahələrdə olduğu kimi, ədəbi müstəvidə də senzura tətbiq edir, ideologiyanı təbliğ etməyən əsərlərə qadağalar qoyur, görkəmli yazıçılarımızı isə, necə deyərlər, qara siyahıya salırdı. Belə bir zamanda öz qələmin, öz ruhun, düşüncən və ideyan ilə yazıb-yaratmaq çox çətin, hətta mümkünsüz iş kimi görünürdü. Lakin həqiqəti olduğu kimi, analiz etmək bacarığına, prosesləri qabaqcadan təhlil etmək səriştəsinə sahib olan bir neçə yazıçımız bütün bu ideoloji burulğanlardan kənarda yaradıcı fəaliyyət göstərməyə, sözün həqiqi mənasında, siyasətin ağır buxovları ilə mübarizə aparmağa çalışırdı. Həmin yazıçılar sırasında Hüseyn İbrahimovun da adı çəkilir; ona görə ki, yazıçının "Günəş doğan yerdə" romanını nəzərə almasaq, yaradıcılığının 40 ildən artıq dövrünü əhatə edən sovet hakimiyyətinin heç bir əlamətdar hadisəsi, tarixi günü və ya siyasi şəxsiyyəti haqqında onun bədii əsəri yoxdur.

Görkəmli yazıçının yaradıcılıq duyumundan danışarkən mütləq şəkildə qeyd etmək lazımdır ki, Hüseyn İbrahimovun romançılıq istedadı bütün müsbət keyfiyyətləri ilə özünəməxsusluq qazanmışdır. Bəli, Hüseyn İbrahimov qələmini fərqləndirən başlıca səbəb əsərlərinin real həyatdan götürülməsi idi. Bununla yanaşı, görkəmli yazıçı əsərlərində, xüsusən də hekayələrində haqqında danışdığı coğrafi mühitin, ərazinin, o cümlədən qəhrəmanların koloritini yarada bilirdi. Yəni Hüseyn İbrahimov qələmi ilə tanış olanlar sanki Naxçıvanı, bu qədim yurd yerinin hər bir qarşını addım-addım gəzir, insanların həyatı, dünyagörüşü, onların dostluğu, düşmənçiliyi, bir sözlə, bütün müsbət və mənfi keyfiyyətləri ilə tanış olurdular. Yazıçının bədii irsinə daxil olan "Şirin xatirə", "Qumralın məktubları", "Təmiz adam", "Kənd həsrəti", "Arxayın Məmməd", "Madam Heruta", "Qadın nəfəsi", "Vicdan səsi", "Köhnə onluq", "Aləmzər" əsərləri Azərbaycan ədəbiyyatının zərif, şümşad boynuna taxılan inci boyunbağının dənələri kimi bu gün də parlayaraq ədəbiyyatımıza yeni ayaq açan nasirlərə "nədən yazaq?" və "necə yazaq?" sualının ən təbii, gözəl cavabıdır.

Yazıçının "Bahar yağışı", "Günəş doğan yerdə", "Əsrin onda biri", "Böhtan" romanlarında epik təsvirin genişliyi, çoxşaxəliliyi, mövzunun dərinlik və əhatəliliyi, millilik və xəlqilik, tarixilik və müasirlik ön mövqeyə çəkilmişdir. Bu əsərlər yalnız həcminə görə deyil, qaldırdığı problemin dəyərinə, siqlətinə, insan talelərinin çoxsaylı süxurlarından bir neçə qatı açıb sökə bilməsinə, zəngin surətlər aləminə görə, sözün bütün mənalarında, sanballı əsərlərdir. Hələ ali təhsil aldığım illərdə – ikinci kursda oxuyarkən sevə-sevə mütaliyə etdiyim böyük memar Əcəmi Əbubəkr oğlu Naxçıvaniyə həsr olunmuş "Əsrin onda biri" romanı isə sənətkarın taleyini, zaman və şəxsiyyət problemlərini bacarıqla əks etdirməsi baxımından olduqca dəyərli əsərdir.

Əsası Mirzə Cəlillə yaradılan Azərbaycan satirik nəsrinin ənənələrindən yaradıcılıqla faydalanan Hüseyn İbrahimov müasir həyatda klassik novella qəhrəmanları ilə qarşılaşarkən "Sənə min rəhmət, Mirzə Cəlil", yaxud "Heyif, Mirzə Cəlil sağ deyil" kimi yerinə düşən, cəlbedici epiqrafların gur işığı altında ənənəvi gülüş obyektinin müasir vəziyyətini bacarıqla açıb göstərə bilmişdi. Müəllifin təqdimatında Cəlil Məmmədquluzadənin məşhur Usta Zeynalına bənzəyən Arxayın Məmməd, Mirzə Qurbanqulunun əziz xələfi olan Əvəz Məmişoviç obrazları özlərini inkişafla ayaqlaşmayan adət və əməlləri ilə bir daha gülüş hədəfinə çevirmiş, öz xarakterləri, dünyagörüşləri və həyata baxışları ilə oxucuda maraq oyatmışlar. Bununla yanaşı, Hüseyn İbrahimov qələminə daxil olan "Arxayın Məmməd", "Day lazım olmadı", "Yeddinci meyit", "Zırrama", "Müdirin naziri", "Barıt", "Nərd", "Eyvazovun salamı", "Yersiz vahimə", "Çaybaz Nəcəf", "Menzurka" satirik novella janrının tələblərinə tam cavab verən uğurlu bədii nümunələrdir.

Uzun illər Azərbaycan ədəbi mühitində, o cümlədən Naxçıvanımızın ictimai-sosial, mədəni həyatında xidmətlər göstərmiş Hüseyn İbrahimov yaradıcılığı dövlətimizin diqqətindən kənarda qalmamış, onun 90, 100 illik yubileyləri ölkə səviyyəsində qeyd olunmuş, 1998-ci ildə Ulu Öndərin müvafiq Fərmanı ilə ona "Xalq yazıçısı" fəxri adı verilmişdir. Yazıçının 100 illik yubileyinin qeyd olunması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2019-cu il 18 may tarixində Sərəncam imzalamış, bu Sərəncam dövlətimizin ədəbiyyat adamlarına davamlı qayğının ifadəsi kimi dəyərləndirilmişdir.

Azərbaycan ədəbiyyatının alnıaçıq yazıçısı, ədəbi sözə, imzaya çevrilən Xalq yazıçımız Hüseyn İbrahimovun xatirəsinə böyük hörmət və ehtiram hissi ilə…

**✍ Məcid RƏŞADƏTOĞLU**

# XVII-XVIII əsrlərdə Naxçıvanda ədəbi mühit




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinin böyük təntənə və silsilə tədbirlərlə qeyd edilməsi həm də muxtar respublikanın ədəbi-mədəni mühitinin də dərindən öyrənilməsi kimi mühüm vəzifələr müəyyənləşdirir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan torpağı tarixin müxtəlif mərhələlərində ədəbiyyatın, ümumən, mədəniyyətin inkişafı baxımından diqqətəlayiq olub. Burada yetişən və fəaliyyət göstərən alimlər, şairlər, incəsənət adamları və başqaları təkcə ölkə daxilində deyil, habelə ölkənin sərhədlərindən kənarda tanınmış və geniş şöhrət sahibi olmuşlar. Akademik İ.Həbibbəylinin qeyd etdiyi kimi: "Tarixin bütün dövrlərində Naxçıvan Azərbaycanın ictimai-siyasi və mədəni həyatında öz çəkisi ilə seçilib. Bütün bunlar bölgənin ədəbi mühitinin inkişafına da öz təsirini əhəmiyyətli dərəcədə göstərib". Azərbaycanda, ümumən, XVI əsrdən sonra, yəni Azərbaycan Səfəvilər dövlətinin yaranmasından sonra bütün sahələr kimi ədəbiyyat sahəsi də inkişaf etmiş, ədəbi mühitin canlanması və inkişafı üçün münbit şərait yaranmışdır. I Səfəvi hökmdarı Şah İsmayıl özü elmə, sənətə, mədəniyyət və ədəbiyyata maraqlı olan və onun inkişafına dəstək verən çox istedadlı və qüdrətli bir hökmdar olmuşdur. Bu inkişaf Şah İsmayılın oğlu I Təhmasibin dönəmində uğurla davam etmişdir. Ədəbi inkişaf XVII-XVIII əsrlərə də daşınmışdır. Təsadüfi deyil ki, məhz bu əsrlərdə Azərbaycan ağız ədəbiyyatı güclü intibah dönəmini yaşamışdır. Çox istedadlı və təbli ustad aşıqlar üzə çıxmış, aşıq yaradıcılığı ənənələrinin uğurlarını şərtləndirən dastan yaradıcılığı pərvazlanmış, çoxsaylı qəhrəmanlıq və məhəbbət dastanları yaranmışdır. Yazılı ədəbiyyat sahəsində Molla Pənah Vaqif və Molla Vəli Vidadi kimi qüdrətli söz ustaları yazıb-yaratmışlar. Vaqifin xalq şeiri ənənələri üzərində gətirdiyi ədəbi ənənələr kamilliyə çatmış və möhkəm özülə malik olmuş, yazılı ədəbiyyatda yeni ənənələr formalaşdırmışdır.

Bəhs olunan dövrdə Naxçıvanda elm, mədəniyyət, ədəbiyyat inkişaf edən sahələrdən olmuşdur. Hətta Naxçıvana səyahət edən, bu diyarın gözəllikləri və zənginliklərindən ağızdolusu bəhs edən məşhur türk səyyahı Övliya Çələbi özünün "Səyahətnamə" əsərində ümumiləşdirilmiş şəkildə Naxçıvanda bütün elm sahələrində mükəmməl biliyə malik olan alimlər və şairlərin olduğunu göstərmişdir. Naxçıvan hakimi ilə görüşən Övliya Çələbiyə onunla tanış və həmsöhbət olması üçün 40-50 nəfərə qədər uzaqgörən alim və nədim, müdrik adamlar dəvət edildiyi qeyd edilmişdir. Bu barədə qaynaqlar da müəyyən məlumatları əks etdirir. Müxtəlif təzkirə, cüng və başqa qaynaqlarda, o cümlədən "Məcməül-xəvas", "Töhfeyi-Sami", "Daneşməndani-Azərbaycan" və başqa mənbələrdə ciddi məlumatlara rast gəlmək mümkündür. Faktlar göstərir ki, Naxçıvanda çox sayda yetişən elm və müxtəlif sənət adamlarının bir qismi müəyyən səbəblərlə bağlı ölkəni tərk edərək başqa ərazilərə getmiş, orada fəaliyyət göstərmişlər.

Səfəvilər dövründə yetişən və yüksək rütbələrə çatan görkəmli alimlərdən biri olaraq Xacə Ətiq Ordubadinin adı çəkilir. Xacə Ətiq Ordubadi I Şah İsmayılın sarayında yaşayaraq burada dəftərxanada katiblik təcrübəsi almış və "Tüğrayi-şah" adlanan yazını ixtira etmişdir. XVII əsrdə yaşamış Məhəmməd İbrahim Nəsiri də dövrün tanınmış alimlərindən olub. Nəsiri sarayda salnaməçi olmaqla bərabər, ədəbi yaradıcılıqla da məşğul olmuşdur. Şeirləri ilə də tanınan Məhəmməd İbrahim Nəsirinin dövrünün tanınmış şəxslərindən olan Məlik Bəhram Ordubadinin nəvəsi olduğu haqqında da bəhs edilmişdir. Məhəmməd Nəsiri Şah Sultan Hüseynin hakimiyyətindən bəhs edən və 500 səhifəlik bir həcmə malik olan "Dəsturi-Şəhriyarən" ("Şahların qanunları") əsərini yazmışdır. Bu dövrün digər tanınmış alimlərindən biri, tibb sahəsində tanınmış alimlərdən olan İbrahim İbn Zeynəddin Naxçıvani idi. Belə ki, bu mötəbər şəxs XVII əsrdə yaşayıb-yaradaraq "Təbiblər rəisi" kimi şöhrət qazanmışdır. İbrahim Naxçıvani, həmçinin tibb sahəsindən başqa fiqh elmi ilə də məşğul olmuş, özünü din alimi kimi də tanıtmışdır.

XVI əsrdən sonra ölkədə formalaşan ictimai-mədəni şərait elm və digər sahələrin inkişafına rəvac vermiş, Naxçıvanda da müxtəlif sahələrə aid elm adamları yetişib ortaya çıxmış, dövrünə ciddi elmi töhfələr vermişlər. Əlbəttə, bu inkişaf özünü həm də ədəbiyyat sahəsində təzahür etdirmiş, ciddi ədib və şairlərin ortaya çıxmasına stimul olmuşdur. Qeyd edildiyi və mənbələrdə də təsdiqini tapdığı kimi, Səfəvilər dövründə bütün bölgələrlə bərabər Naxçıvanda da inkişaf özünü təzahür etdirmişdir. Bu da maraqlıdır və qeyd edilməlidir ki, həmin dövrdə Ordubad ədəbi mühiti az qala bir ayrıcalıq təşkil etmiş, xeyli inkişaf yolu keçərək zəngin bir ədəbi-mədəni mühitə malik olmuşdur. Naxçıvanın ədəbi simaları arasında Ordubaddan olan müəlliflər çoxluq təşkil etmişdir.

Qeyd edilən dövr və ya ədəbi mərhələnin təməlini təşkil edən XVI əsrə aid Naxçıvanın tanınmış ədəbiyyat adamlarından biri Mirzə Sadiq Ordubadi olub. Yaradıcılığında rübai janrına daha çox rəğbət göstərən Mirzə Sadiq Ordubadi orijinal əsərlər yazıb ortaya qoymuşdur. Onun rübailəri haqqında orijinal və nəzirə olmaq üzrə iki qrupa bölərək bəhs açırlar. Şair nəzirə olaraq yazdığı rübailərini Şərqin iki böyük şairi olan Əbdürrəhman Cami və Cəlaləddin Dəvvaninin rübailərinə cavab olaraq yazmışdır.

**Ramiz QASIMOV**
*AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Gümüşgöl əfsanəsi



# Çoban qızının sonsuz sədaqəti...

Avtomobilimiz yavaş-yavaş Naxçıvan şəhərindən Şərur rayonuna doğru yol aldıqca, uzun məsafənin yorğunluğundan qurtulmaq üçün gedəcəyimiz ünvanla bağlı, daha doğrusu, qələmə alacağım mövzu ilə bağlı düşünürəm: "Mövzuya necə başlıq seçim, ilk cümlələri necə qurum, nə cür yazım?" Bu mövzuya mətbuatda çox az yer verilib, "Şərq qapısı" qəzetində isə bu haqda uzun illərdir ki, heç bir yazı işıqlandırılmayıb, naxçıvanlıların təbiət möcüzəsi adlandırdıqları o yerin, o məkanın fotoşəkilləri çəkilməyib, haqqında videomateriallar hazırlanmayıb. Hazırlansa da çox az... Elə yazmalıyam ki, məqaləni oxuyanlar o sehrli məkanın – Gümüşgölün mənzərəsini gözlərində canlandıra bilsinlər, onun illərdir, dillərdən düşməyən əfsanəsini bir də bizim dilimizdən eşitsinlər…

Bir saatdan sonra Kəngərli və Şərur rayonlarının yaşayış məntəqələri ilə uzanan yol, nəhayət, bizi Gümüşlü kəndinə çatdırır. Kəndə ilk daxil olduğumuz andan ətrafa hakim olan sakitlik və təbiətin ecazkar harmoniyası diqqətimizdən yayınmır. İlin bu dövrlərində bütün kəndlərimizdə olduğu kimi, Gümüşlü kəndində də hər kəs qarşıdan gələn uzun qış ayları üçün tədarük görür; kişilər sahələrdə ot biçir, ağacları sulayır, xanımlar isti ocaq başında il uzunu zəhmətini çəkdikləri ağacların meyvələrindən bir-birindən ləzzətli qış azuqələri hazırlayır, bir sözlə, hər kəs öz məişət qayğıları ilə baş-başadır…

Kəndin mərkəzi hissəsindən Gümüşgölə doğru daşlı-çınqıllı bir yol uzanır. Bu yolu tutmazdan əvvəl, yəni Gümüşgölə getməzdən əvvəl mütləq aidiyyəti qurumlara məlumat verməlisiniz. Yalnız bundan sonra siz Gümüşgölü ziyarət edə bilərsiniz. Səbəb çox sadədir. Bu göl sərhəd məntəqəsində yerləşir...

Bəhs etdiyimiz daşlı-çınqıllı qısa yol bizi Gümüşgölə çatdıranda diqqətimizi ilk əvvəl bu təbiət gözəlinin əlvan rəngi çəkir. Muxtar respublikamızın bir neçə gölünü görsəm də, ölkəmizin ondan çox gölü ilə qiyabi surətdə – fotoşəkillərlə tanış olsam da, sözün düzü, Gümüşgöldə olan ecazkarlıq və harmoniyanı başqa yerdə görməmişəm. Gölün rənginə tamaşa etdikcə insanın ağlından belə bir sual keçir: bu gölün adına nə üçün Gümüşgöl deyirlər? Duruluğu gözyaşı qədər təmiz, rəngi firuzənin rəngi qədər cəlbedici və ehtişamlı, ancaq adı Gümüşgöl…

Oxucularımız içərisində, yəqin, bilənlər var ki, 1984-cü ildə "Azərbaycanfilm" kinostudiyası tərəfindən yazıçı İsi Məlikzadənin ssenarisi və Eldar Quliyevin rejissorluğu əsasında "Gümüşgöl əfsanəsi" filmi ekranlaşdırılıb. Tamaşaçı auditoriyasına təqdim edildiyi ilk gündən etibarən böyük rəğbət qazanan bu film illər ötdükcə daha çox izləyici kütləsi qazandı. Filmin böyük bir hissəsi Naxçıvanda, Gümüşlü kəndində, o cümlədən Ordubad rayonunun bir çox ərazilərində çəkilib. Bu film həm də muxtar diyarımızın təbliğatında böyük rol oynadı. Düzdür, filmin məzmunu bir çoxlarımıza yaxşı tanışdır. Ancaq biz yenə də yaddaşımızı vərəqləyək; filmin ideyası və məzmunu ilə oxucularımızı bir daha tanış edək. Deməli, avtomobil gəzintilərindən birində gənc sənətşünas Fərid (Eldəniz Rəsulov) və dostları yoldan keçən piyadaya (Ramiz Əzizbəyli) sataşmaq məqsədilə maşının işığını onun üstünə tuşlayırlar. Piyada maşına dəyib yıxılır, ani hadisənin təsirindən huşunu itirir. Məsuliyyətdən yaxa qurtarmaq üçün gənclərin hamısı şəhərdən çıxmağa çalışır. Fərid də uzaq dağ kəndinə, məşhur xalçatoxuyan Səidənin (Şükufə Yusifova) yanına gedir. Burada o, Səidənin qızı Leyli (Yelena Seropova) ilə tanış olur. Sadəlövh qız ona doğulduğu kəndin ecazkar təbiət mənzərəsinin – Gümüşgölün əfsanəsini danışır. Başqasına nişanlı olan Leyli ilə Fərid arasında isti münasibətin yaranması hadisələri xeyli dramatikləşdirir. Fərid bir neçə gün sonra şəhərə qayıdır, ancaq burada özünə, necə deyərlər, yer tapa bilmir, sıxılır, darıxır. Gümüşgöldə gördüklərindən, şahidi olduqlarından sonra həyat ona cansıxıcı görsənir. Leyli və Gümüşgölün hərəkətsiz suları onun gözünün qarşısından çəkilmir. Fərid yenidən dağ kəndinə – həm Leylini görməyə, həm də Gümüşgöl əfsanəsini bir də sevdiyi qızın dilindən eşitməyə gedir. Fəridin həmin kənddə Leyli ilə olan monoloqu və ardınca sevdiyi qızın gölün üzərində bir su pərisi kimi ayaq açıb yeriməyi, yəqin ki, filmi izləyən hər kəsin kədərinə və marağına səbəb olur. Filmin söz açdığımız son səhnəsində Leylinin Gümüşgöl haqqındakı monoloqu bir daha qulaqlarımızda səslənir: "Lap qədimlərdə bir qala var imiş burada. Bu göl elə adicə göl imiş. Qala sahibi olan xanın dörd arvadı var imiş. Xan kiçik arvadı – çoban qızını hamısından daha çox sevərmiş. Günlərin bir günü xan uzaq səfərə çıxır. Yerinə öz sevimli arvadını qoyur. Çoban qızı el-obanın dərdinə qalır, rəhmi, səxavəti ilə ad qazanır. Xanın o biri arvadları çoban qızının paxıllığını çəkirlər. Xan səfərdən qayıdan kimi onun qulağını doldururlar; deyirlər ki, çoban qızı sənə xəyanət edib. İnandırırlar xanı. O da əmr edir ki, sübh tezdən çoban qızını batırsınlar göldə. Çoban qızı nə qədər yalvarıb-yaxarır, andaman eliyir, ancaq xan dediyindən dönmür. Onu gətirirlər gölün qırağına. Gün doğar-doğmaz qızı atırlar bax həmin bu gölə. Amma çoban qızı göldə batmır; suyun üzü ilə elə addımlayır ki, deyirsən, bəlkə, dağın üstündə yeriyir. Beləcə, gedib çıxır o biri sahilə, günahsız olduğu aydın olur. Xan o saat böhtançı arvadlarını gətirib gölə atdırır, üçü də göldə batıb ölür. O gündən yalan, böhtan, nifrət qaladan əl-ayağını çəkir. Bu göl isə olur müqəddəs göl. Buna görə adamlar bu gölə girməkdən çox qorxur. Qorxurlar ki, birdən günahları olar, batarlar".

Filmdən illər əvvəl görkəmli yazıçımız İsi Məlikzadə Gümüşgöl haqqında olduqca maraqlı bir povest yazdı. Əsər böyük oxucu rəğbəti qazandı. Yalnız bu povestin işıq üzü görməsindən sonra Gümüşgölün əfsanəsi dillər əzbəri oldu, haqqında rəvayətlər söyləndi. Bilənlər bilir; bu gölün çox qeyri-adi, olduqca lətif və cazibəli aurası var. Hətta kənd sakinləri söyləyir ki, lap əvvəllərdən bir kimsə bədbin və sıxıntı içərsində olarsa, bura gələr, göz işlədikcə uzanan dağları, aşırımları, o cümlədən gölün mənzərəsini seyr edər, sahilə vuran ləpələrin zümzüməsini dinləyər, bununla ruhu da, cismi də rahatlıq tapardı. Deyilənlərdən belə bir nəticə də çıxarırıq ki, Gümüşgöl öz sakinlərinin qəlbinə məhəbbətini salar, yüzlərlə insan içindən saf niyyətliləri, təmiz ürəkliləri seçib görüşünə çağırar. Elə illər əvvəl İsi Məlikzadəni öz görüşünə çağırdığı kimi. Yeri gəlmişkən deyək ki, görkəmli yazıçı "Gümüşgöl əfsanəsi" povestini böhranlı dövrlərdə, mənəvi yorğunluq keçirdiyi illərdə qələmə alıb. Daha doğrusu, Gümüşgölün sehri onu düşdüyü mənəvi bulruğanlardan çıxarıb. Xatirələrdən oxuyuruq ki, 1980-ci ildə İsi Məlikzadə "Azərbaycan" jurnalından gedəndən sonra açıq-aşkar bədbinləşmiş və nisbətən az yazmağa başlamışdı. O ən böhranlı vaxtlarında ata ocağına – Ağcabədidəki evlərinə üz tutmuş, 1982-1983-cü illərdə isə yazıçı fasilələrlə yaşadığı doğma ocağında özünün ən parlaq əsərlərindən birini – "Gümüşgöl əfsanəsi" povestini yazmışdı. Bu əsər onun insan və təbiət, düzlük və xəyanət, istedad və mühit barədə ağır düşüncələrinin, Gümüşgöl qədər təlatümlü fikirlərinin nəticəsi idi. Yazıçı gözəl xalq əfsanəsindən, əslində, öz ömrünün, taleyinin ağrılı nəticələrini ifadə etmək üçün istifadə etmişdi. İsi Məlikzadə, əslində, bütün yaradıcılığı ilə bir şeyi yazmışdı – özünün ürəyi istəyən təbii həyatla yaşaya bilməməyinin tarixçəsini. "Gümüşgöl əfsanəsi", əslində, bu tarixçənin fəlsəfi hissəsi, daha dəqiq desək, yazıçı ömrünün sözə çevrilmiş bədii obrazı idi. Əsəri oxuyarkən görürük ki, yazıçı yığcam bir povestdə bütün yaradıcılığı ilə dediklərini ümumi bir əfsanə şəklinə salmışdı. Povestdə üç əsas qəhrəman – Orxan, Ağbəyim və Bənövşə üç müxtəlif taleyi əks etdirir. Lakin bu talelərin hamısı təbiət və təbii həyat problemləri ilə ayrılmaz şəkildə, qırılmaz tellərlə bağlıdır…

Gümüşgöl bir əfsanədən, təbiət abidəsindən daha çox insanları mənəvi paklığa, daxili zənginliyə səsləyən hikmət mənbəyidir. Leylinin Fəridə əfsanədə danışdığı kimi...

Hələ adı dillər əzbərinə çevrilmədiyi vaxtdan bu göl xeyirlə şərin, qaranlıq və zülmətin, yalan və doğrunun haqq tərəzisi, ədalət güzgüsü olmaqla xalqımızın yaddaşında ölməzlik qazanıb. Təsadüfi deyildir ki, böhtanların, yalanların həyat amalı seçildiyi, doğruluğun, düzgünlüyün itib-batdığı bir məqamda xalqımızın içindən çıxan çoban qızının saf sevgiyə, təmiz mənəviyyata, ədalətə olan inamı onu ədəbi-bədii söz dünyasında qəhrəmanlıq səviyyəsinə qaldırıb, insanların daxilindəki vicdan səsinə bütün günahlardan arınmış, təmizlənmiş saf, təmiz insan surəti qazandırıb. Elə o gündən – çoban qızı Gümüşgöl üzərində yürüyüb kinin, böhtanın, yalanın içindən ayrıldığı andan bu göl yaddaşlarda müqəddəslik qazanıb. Bu səbəbdən Gümüşgöl haqqında danışarkən onun qazandığı hikməti yada salmaq, hər şeydən əvvəl, daxili gözəlliyin fərqinə varmaq, dünyanı saf və müqəddəs sevginin arşını ilə ölçmək və bir də çoban qızının saf sevgiyə olan sonsuz sədaqətini yada salmaq lazımdır…

**Məcid RƏŞADƏTOĞLU**






Rus rəssamı İvan Şeblıkin


Rus rəssamı İvan Şeblıkin. Ordubadda küçə.


Rus rəssamı İvan Şeblıkin. Ordubadda küçə. 1934


Rus rəssamı İvan Şeblıkin. Eyvaz Piri. 1935

# Şeblıkinin Ordubad əsərləri

Bir sıra vəzifələrdə çalışmış, həmçinin müəllim kimi fəaliyyət göstərmiş İvan Pavloviç Şeblıkin 1921-ci ildə Şimali Qafqaz Diyarşünaslıq İnstitutunun muzeyində işə dəvət olunur. Rus arxeoloqu, tarixçisi kimi tanınan bu şəxs həm də istedadlı qafqazşünas idi. O, 1928-ci ildə tarix və mədəniyyət abidələrinin bərpası üzrə məqsədyönlü bir sıra işlərə başlanılması ilə əlaqədar Bakıya dəvət olunur. A.Bakıxanov adına Tarix İnstitutunun, Nizami adına Muzeyin və Azərbaycan Abidələrinin Mühafizəsi üzrə Mərkəzi İdarənin əməkdaşı kimi bir sıra arxeoloji qazıntı və bərpa işlərində fəal iştirak edir. O, rəssam istedadına malik olduğundan abidələri təkcə bir alim kimi öyrənmirdi, həm də onların bir çoxunun şəklini çəkirdi. İ.P.Şeblıkin "Bakıdakı Şirvanşahlar sarayının qısa tarixi oçerki" (Bakı, 1939), "Nizami dövrü Azərbaycan memarlığı abidələri: materiallar" (Bakı, 1943), "Azərbaycan memarlığı: Nizami dövrü" (Bakı, 1947) kimi sanballı kitabların müəllifidir. Günümüzdə bu kitablar vasitəsilə adlarından da göründüyü kimi, Şirvanşahlar sarayının, həmçinin Nizami dövrünün memarlığı barədə ətraflı məlumatlar almaq olar.

Bu yaxınlarda Ordubad rayonunda ezamiyyətdə olarkən rayonun Tarix-Diyarşünaslıq Muzeyində çoxlarına bəlli olmayan 3 maraqlı rəsm əsərinə rast gəldik. Məlumdur ki, hər zaman xarici səyyahların, tədqiqatçıların, rəssamların diqqətini çəkib bu gözəl diyar. Yəqin ki, həmin rəsmlər də müəllifin Ordubaddan aldığı təəssüratlarla bağlı olaraq çəkilib. İkisi "Ordubadda küçə", biri isə "Eyvaz piri" adlanan bu əsərlərin məhz Şeblıkinə məxsus olduğunu öyrəndik. Əsərlərdə Ordubadın əzəmətli dağları, gözoxşayan mənzərələri, dar dalanları və hərəkətdə olan insanlar, xüsusilə də tarixi tikililəri peşəkarcasına öz əksini tapıb. "Eyvaz piri" əks olunan əsərdə tarixi tikili ilə yanaşı, ətrafında olan qədim məzarlıq görünür. Realist üslubda işlənmiş bu rəsm əsərləri, həqiqətən də, tarixin o dövrünü bu günümüzə daşıyan əyani vəsaitdir.

Qeyd edək ki, muzeydəki rəsm əsərləri haqqında məlumatı əks etdirən kiçik lövhələrdə həmin əsərlərin yağlı boya ilə işləndiyi qeyd olunsa da, sənətşünas və rəssamlarımızın məlumatına görə, kağız üzərində tuş-peru ilə işlənilib.

Rəsm əsərlərinin üçü də kağız üzərində qrafika üslubundadır. Rəsmlərin arxa hissələrinə isə ton verilib. Həmin dövrdə qrafika növü də digərləri kimi üstünlük təşkil edən növlərdən olub. Bunu elə həmin dövrlərə aid olan bir çox tarixi rəsm əsərlərində də görmək olur.

*Hörmətli oxucular!*

Qəzetimizin gələn saylarının birində İvan Şeblıkinin Naxçıvanla bağlı digər əsərləri barədə də söhbət açacağıq...

**Aidə İBRAHİMOVA**

# Muxtariyyətin zəhmətkeş ailəsi

Ailə institutu Azərbaycan cəmiyyətində xüsusi dəyər kəsb edir. Tarixboyu bu coğrafiyada yaşayan insanlar ailəcanlılığı ilə seçiliblər. Azərbaycanda qurulan ideal ailə modelinin təməlində mənəvi dəyərlərin qorunması, özünəməxsus ənənələrin yaşadılması, fərdlər arasında sədaqət, qarşılıqlı məhəbbət, dürüstlük və hörmət dayanır. Yalnız bu zaman ailə möhkəm və dayanıqlı olur. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə əlaqədar "Təbliğat-100" layihəsi çərçivəsində ailə məsələləri ilə bağlı təbliğat və maarifləndirmə tədbirləri davam edir. Layihələrdən biri "Muxtariyyətin zəhmətkeş ailəsi" layihəsidir. Layihə ilə bağlı Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Poblemləri üzrə Dövlət Komitəsinin Ailə, qadın problemləri və gender məsələləri şöbəsinin müdiri Könül Babayeva bildirdi ki, layihənin əsas məqsədi sağlam və güclü təməllər üzərində qurulan ailə dəyərlərinə milli-mənəvi dəyərlərimizə arxalanaraq onlara önəm verib yaşadan zəhmətkeş, nümunəvi uzunömürlü ailələri cəmiyyətə tanıtmaq və bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirməkdir. Bu ailələrlə görüşə gedərkən komitənin ailə könüllülərinin iştirakını təmin edirik. Ailə həyatını möhkəm təməllər üzərində qurub sağlam övladlar tərbiyə edən ailələri cəmiyyətə tanıdırıq.

Biz də "Şərq qapısı" qəzetində bu layihədə iştirak etmiş zəhmətkeş Əliyevlər ailəsindən söz açacağıq. Ailə ilə yaxından tanış olmaq üçün yollandıq onların yaşadığı ünvana. Ailə başçısı Nadir Əliyev bizə "Xoş gəlmişsiniz", – deyərək içəri dəvət etdi.

Söhbət zamanı öyrəndik ki, onlar 50 ildir, həyat yolunda qoşa addımlayırlar. Ailənin başçısı Nadir dayı bildirdi ki, 1940-cı il təvəllüdlüdür. Uzun illər dövlət qulluğunda çalışıb, 2 övlad böyüdüb və 4 nəvə sahibidir. Onun ömür-gün yoldaşı Mahirə xanım isə 1948-ci il anadan olub. O həm qayğıkeş ana, həm də metodist-müəllim kimi gələcəyin vətənpərvər övladlarını yetişdirib. Uzunömürlü, zəhmətkeş ailənin üzvlərinin sözlərinə görə nümunəvi ailə milli-mənəvi dəyərlərimizi qorumalı və gələcək nəsillərə çatdırmalıdır. Ailə böyükləri nümunəvi davranışları ilə həm öz övladlarına, həm də ətrafındakılara nümunə olmalıdırlar. Ailədə hər kəs bölüşməyi bacarmalıdır. Atalarımız deyib ki, "Ailə kiçik bir dövlətdir".

Mahirə xanım deyir ki, hər bir valideyn min bir əziyyətlə öz övladını böyüdür. Şükürlər olsun ki, bu gün gənc nəsil o ağrılı-acılı zəmanədə böyümür. Ailələrinin davamlılığının sirrindən bəhs edən Nadir dayı diqqətimizə çatdırdı ki, ailəmizin uzunömürlülüyünün sirri mehribanlıq və hörmətdir. Nə qədər ki, kişi və onun qadını arasında qarşılıqlı hörmət, böyük-kiçik yeri bilinirsə, deməli, həmin ailə möhkəm təməl üzərində qurulub. Ailədə tərbiyə əsas rol oynayır. Ata, ana bir-birinə qayğı göstərirsə, həmin ailədə mehriban övladlar böyüyəcək. Mənim ən böyük fəxrim övladlarımın xoşbəxtliyidir.



Nadir dayı gənc nəslə tövsiyə verərək söylədi ki, ailə bağlarının möhkəm olması üçün kişi və qadın bir-birinə hörmət etməli və güzəştə getməyi bacarmalıdır. Bu zaman isə uzunömürlü və nümunəvi bir ailə formalaşdığının şahidi olacağıq. İndiki gənclər dözümsüz və səbirsiz davranırlar. Halbuki, günümüzdə rahat yaşamaq üçün hər şərait var.

"Muxtariyyətin zəhmətkeş ailəsi" ilə sağollaşıb onlara uzun ömür arzu edirik. Bu cür zəhmətkeş və nümunəvi ailələr hər zaman gənc nəsil üçün örnəkdir.

Söhbətimizdən bu nəticəyə gəldik ki, ailədə qadın və kişi öz münasibətlərini qarşılıqlı yardım, hörmət hissi əsasında qurmalı, ailənin möhkəmləndirilməsi və rifahı üçün birgə fəaliyyət göstərməli, övladlarının inkişafı naminə əlverişli şərait yaratmalı və onların sağlamlığının qayğısına qalmalıdır.

**Bülbül QULİYEVA**

## COP29-la bağlı maarifləndirici tədbir



Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Naxçıvan şəhəri COP29-a hazırlaşır" mövzusunda keçirilən tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini, başçı vəzifələrinin müvəqqəti icraçısı Əhməd Vəliyev COP29-la bağlı Azərbaycanda, o cümlədən Naxçıvanda aparılan işlər barəsində məlumat verib.

Daha sonra Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifələrinin müvəqqəti icraçısı Hüseyn Səfərov təbiətin çirklənmə səbəbləri və onların həlli yolları haqqında tədbir iştirakçılarına məlumat verib.

Sonda COP29-la bağlı videoçarx nümayiş olunub, tədbir iştirakçılarına maarifləndirici broşürlər təqdim olunub.

## *"Strateji kommunikasiya"* mövzusunda təlim keçirilib



Sentyabrın 11-də muxtar respublikada fəaliyyət göstərən bir sıra dövlət mətbuat orqanlarının əməkdaşları, media nümayəndələrinin iştirakı ilə Strateji kommunikasiya üzrə mütəxəssis Rəşad İmanov tərəfindən "Strateji kommunikasiya" mövzusunda təlim keçirilib.

Təlimin keçirilməsində məqsəd kommunikasiya sahəsində peşəkar vərdişlərin inkişafına dəstək olmaq, iştirakçıların böhran kommunikasiyasının düzgün təşkili kimi mövzularla bağlı bilik və bacarıqlarının təkmilləşdirilməsindən ibarətdir.

Rəşad İmanov təlim iştirakçılarına peşə fəaliyyətində effektiv kommunikasiya qurmaq bacarıqlarının növləri, önəmli komponentləri, eləcə də marketinq, təşkilati, ictimaiyyətlə əlaqələr və brendinq, böhran kommunikasiyaları barədə ətraflı məlumat verib. Bildirilib ki, hər bir qurumun əməkdaşı tam məlumatlı olmalı, qurumun missiyasını öyrənməli və həmin əməkdaş öz rolunu dərk etməlidir. Müzakirələr formatında davam edən təlimdə strateji kommunikasiya anlayışı nədir, özündə nələri ehtiva edir, strateji kommunikasiyadakı yeni tendensiyalar hansılardır, burada süni intellektin, datanın təsiri və digər məsələlərə aydınlıq gətirilib. Təlimdə, həmçinin təşkilati kommunikasiya tərkibində adaptasiya proqramının önəmi vurğulanılıb.

Təlim çərçivəsində iştirakçıları maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

## Tanınmış cüdoçular Naxçıvanda ustad dərsi keçib

Naxçıvan şəhərində açıq hava şəraitində idman tədbirlərinin təşkili davam etdirilir. Naxçıvan Dövlət Milli Dram Teatrının önündə dünya çempionu Nihat Məmişov, Avropa çempionu Bahadır Feyzullayev, yığma komandanın məşqçisi Nicat Şıxalızadə və məşqçi Samir İsmayılovun iştirakı ilə cüdo üzrə ustad dərsi təşkil olunub.

Tədbirin əvvəlində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Aparat rəhbəri İlhamə Nəzərova, Azərbaycan Cüdo Federasiyasının (ACF) nümayəndəsi Rəşad İbrahimov, Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbinin direktoru, Əməkdar məşqçi Faiq İsgəndərov tədbirin məqsəd və əhəmiyyəti haqqında fikirlərini ifadə ediblər. Qeyd olunub ki, əhalinin, xüsusən də gənc nəslin sağlam həyat tərzinə təşviqi, idmana olan marağının artırılması, ümumən, idmanın inkişafı ölkəmiz üçün prioritet təşkil edir. ACF tərəfindən iki ildir, icra olunan "Ustad dərsi" layihəsi regionlarda cüdo idman növündə kütləviliyin artırılması məqsədinə xidmət edir.

Ustad dərsi çərçivəsində müxtəlif cüdo fəndləri uşaq və yeniyetmələrə nümayiş etdirib. Təcrübəli idmançılar cüdonun fəlsəfəsi və əsas texnikaları haqqında məlumat verərək iştirakçılara bu idman növünün incəliklərini öyrədiblər.



Tədbir zamanı iştirakçılar üçün viktorinalar təşkil olunub, cüdo ilə bağlı suallar verilib və düzgün cavab verən şəxslərə müxtəlif hədiyyələr təqdim edilib.



# Torpaqla, təbiətlə iç-içə

**Kənd təsərrüfatına xidmət edərkən təbiəti incitməyin, zərər verməyin, müşahidə edin. Ondan öyrənməli olduğumuz çox dərs və faydalar var. Başqasının fəlakəti üstündə səadət qurmaq olmaz. İnsanoğlu çox uzun zaman təbiətin fəlakəti üzərində səadət qurmağa çalışıb. Yaşadığımız pandemiya tam da bizim demək istədiyimizi dedi.**



Təbiətə ziyan verməməyi öyrənməlidir insan. Sadəcə, bir qida mənbəyi var; torpaq. Bu mənbəni təkcə insanlar istifadə etmir. İnsan mövcud ehtiyatların hamısını özü üçün istifadə etməyə çalışsa, təbiətdə yaşayan digər canlıların – heyvanların, quşların, böcəklərin qida mənbələrini məhv edər. Canlıların təbii qida ehtiyatları tükəndiyi zaman isə yaşadıqları əraziləri tərk edib insan məskənlərinə gəlirlər və bir çox xəstəlikləri insanlara yoluxduraraq epidemiyalar yaradırlar.

Son 50-60 ildir ki, Yer kürəsinin ritmi dəyişir. İnsanoğlunun seçdiyi həyat tərzindən, istehsal formasından, istehsal və istehlak modelindən qaynaqlanaraq qlobal istiləşmə, ozon qatı problemi, karbon qazının çoxalması, quraqlıq, eroziya çoxalır. Daha önəmlisi, Yer kürəsinin nemətləri, imkanları, ya da materialları – faydalı qazıntıları, təbii ehtiyatları, canlı növləri azalır. Çünki insanlıq həm istehsala, həm də istehlaka kobudca davam edir. İnsan təbiətlə sülh imzalayıb geri çəkilməlidir. Bəzən insan, təbiətin içində o qədər çox təhdidkar şəkildə irəliləyir ki, bu, çox böyük ekoloji fəlakətlərə səbəb ola bilər.

Təbiət özünü təmir edir, bərpa edir. Təbiət istehsal edir, inkişaf etdirir, böyüdür və digər canlılarla bölüşür. Amma heç bir zaman qazanca adaptasiya olmayıb. Təbiət bütün canlıların bir yerdə yaşamasına imkan verəcək şəkildə bir sistem yaradır və buna uyğun fəaliyyət göstərir. İnsan təbiəti təkrar etsə, problemləri də həll edər...

Hər istehsal müəssisəsi sərmayəyə ehtiyac duyduğu kimi, kənd təsərrüfatının da ehtiyac duyduğu sərmayələr var: torpaq, hava, su. Bunlar isə əbədi mənbə deyil, tükənə bilən təbii sərvətlərdir. Sərmayə nə qədər çox məhv olsa, insanları məchul bir gələcəyə doğru aparar. Dolayısıyla, biz bu günün mənbələrini bu gün sərf etsək, davamlılığı təmin edərik. Biz gələcək nəsillərin mənbələrini bu gündən sərf etməyə başlasaq, o zaman davamlılıqdan danışmağa dəyməz. Sərmayədən də danışmağa dəyməz. Həyatımızın hər günü, hər saniyəsi onları qorumalıyıq. Bunu, sadəcə, özümüz üçün deyil, gələcək nəsillərimiz üçün də etməliyik. Çünki torpaq və su bizim həyat qaynağımızdır. Kənd təsərrüfatı ilə məşğul olanların ən böyük sərmayəsidir. Hər ikisi də itirildiyində geri gətirilməsi, bərpa olunması, demək olar ki, mümkün olmayan elementlərdir.



Hamımız torpağa, suya bağlıyıq, onlarla birlikdə yaşayırıq. Su kənd təsərrüfatı məhsulları istehsalının ruhu, bu torpaqların şah damarıdır. Yoxa çıxarsa, geriyə, sadəcə, quraq, bərəkətsiz və sahibsiz ərazilər qalacaq. Bilməli olduğumuz ən önəmli şey şirin suyun təbiətdə çox az olan bir ünsür olmasıdır. Suyu ən doğru və qənaətcil şəkildə istifadə etməklə qoruya bilərik. Hədəf, sadəcə, daha məhsuldar bir kənd təsərrüfatı deyil, eyni zamanda suyun daha yaxşı qorunduğu bir kənd təsərrüfatı yaratmaqdır. Naxçıvanın geniş əkinəyararlı torpaq sahələrində qurulan qapalı suvarma şəbəkələri də məhz bu amala xidmət edir. Bu yolla suya qənaət, su itkisinin azaldılması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması və məhsuldarlığın artırılmasına dəstək verilir.



Torpaq, yaşayan bir dünya, içində yaşatdığı saysız-hesabsız üzvi maddə sayəsində bitkiləri qidalandıran, suyu süzən və mühafizə edən həyat mənbəyidir. Torpağı, suyu və sahib olduğumuz təbiəti daha yaxşı qoruyaraq istehsal potensialını gələcəyə etibarlı şəkildə apara bilmək mümkündür. Ancaq bunu bacarmaq, sadəcə, təsərrüfatçılara deyil, bu torpaqlarda yaşayan bütün sakinlərin ortaq əməyinə bağlıdır.

*(ardı var)*

**Məmməd BABAYEV**

## Yer təkindən istifadə ilə bağlı 25 oktyabr 2024-cü il tarixdə saat 11[00]-da keçiriləcək hərracın elanı

Hərrac auksion formasında keçiriləcəkdir.
Culfa rayonu, "Əlincəçay" qum-çınqıl yatağı

| № | Yatağın adı | LOT | Həcmi | Sahəsi | Faydalı qazıntının növü | İstismar müddəti | Yatağın koordinatı | Başlanğıc qiyməti (manatla) | Beh məbləği (10 faiz) (manatla) | İştirak haqqı (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Əlincəçay | LOT-1 | 200000m³ | 4,0 ha | Qum-çınqıl | 20 ilədək | X4328151.874<br>Y552558.303<br>X4328224.730<br>Y552641.414<br>X4328218.420<br>Y552700.536<br>X4328295.871<br>Y552739.104 | 20000 | 2000 | 540 |

***Hərracın keçiriləcəyi ünvan:*** Naxçıvan şəhəri, Nəsrəddin Tusi küçəsi 19, (Naxçıvan Biznes Mərkəzi MMC)

***Qeyd:*** Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər hərracla bağlı məlumat almaq, iştirak haqqı və 10 faiz miqdarında beh məbləğini ödəmək üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edə bilərlər (Naxçıvan şəhəri,Cəlil Məmmədquluzadə küçəsi 42).

***Yer təki sahəsindən faydalı qazıntılar çıxarılması üçün hərrac iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalı və hərracda iştirak etmək üçün aşağıdakı sənədləri müraciət ərizəsinə qoşma olaraq təqdim etməlidirlər:***

1. Hərracda iştirak etmək üçün yazılı ərizə-müraciət (əlavə olunur);
2. Hərracda iştirak haqqının ödənilməsi barədə bank sənədinin əsli;
3. Hərracda (müsabiqə və auksion) iştirak etmək üçün ödənilən iştirak haqqı (hərrac xərcləri) hərrac predmetinin ehtiyat həcmlərinə münasibətdə aşağıdakı qaydada (Lot üzrə) müəyyən edilir:

Ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrədək – 540,00 (beş yüz qırx) manat;

Ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrdən 500 000 (beş yüz min) kubmetrədək – 810,00 (səkkiz yüz on) manat;

Ehtiyat həcmi 500 000 (beş yüz min) kubmetrdən yuxarı olduqda – 1080,0 (bir min səksən) manat.

4. "Vergiödəyicisinin vergi borcu barədə" arayış (müvafiq sənəd elektron qaydada alındıqda notarial təsdiqli olması zəruridir);
5. İddiaçının son bir ildə maliyyə vəziyyəti haqqında bank arayışı (hesabdan çıxarış);
6. İddiaçının tam adı, hüquqi statusu: Hüquqi şəxsdirsə – nizamnaməsi, VÖEN-şəhadətnaməsi və dövlət reyestrdən çıxarışı, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri; fiziki şəxsdirsə – şəxsiyyəti təsdiq edən sənəd və VÖEN-şəhadətnaməsi (notarial qaydada təsdiqlənmiş);
7. İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar: ən azı 1 dağ-mədən mühəndisi və 1 geoloq ilə bağlanmış əmək müqaviləsinin və onların ixtisasını təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti;
8. İddiaçının maddi-texniki bazası (faydalı qazıntıların çıxarılması üçün zəruri texniki vasitələri və avadanlıqları) haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə tərtib olunmalıdır.

İddiaçılar hərracda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 17 oktyabr 2024-cü il saat 18[00] qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 ünvanında (Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binası) təqdim etməlidirlər.

Hərracda iştirak etmək üçün hüquqi və fiziki şəxslər Nazirliyə "Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi Qaydalarına" uyğun ərizə (bundan sonra "ərizə") təqdim edir.

***Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.***

Hərracda iştirak etmək istəyənlər hər lot üzrə yatağın ehtiyat həcminə uyğun məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 (Əlaqələndirici şəxs: Əliyev Şövqi, telefon: (036) 545-34-85, 050-569-84-69 ) ünvanından ala bilərlər.

| |
|---|
| Hesab: AZ21NABZ12360100000000005944 |
| VÖEN: 0200003621 |
| Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu |
| Büdcə təsnifat kodu: 142325 |
| Büdcə səviyyəsinin kodu: 7 |

***İştirak haqqı heç bir halda geri qaytarılmır.***

Hərrac komissiyası tərəfindən hərrac iştirakçısına dəvət məktubu verildikdən sonra 2 (iki) iş günü ərzində başlanğıc qiymətinin 10 faiz miqdarında beh məbləği ödənilməlidir.

Beh məbləği ödənilmədiyi təqdirdə iddiaçı hərraca buraxılmır.

***İtmişdir***

Məmmədov Məmməd Kamil oğlunun adına olan Culfa şəhəri, 3-cü məhəllə, ev 6 ünvanındakı fərdi yaşayış evinin 2853 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Xok kənd sakini Cəfərov Ramazan Əyyub oğlunun adına olan JN-149[A] nömrəli, 10800038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Sirab kəndində yaşamış Orucov Yaşar Məmmədhüseyn oğlunun adına olan JN-323[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kənd sakini Vəliyev Asif Qardaşxan oğlunun adına olan 470[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Əbrəqunus kəndində yaşamış Hətəmov Fikrət Cəlil oğlunun adına olan JN-289[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kərimbəyli kənd sakini Dünyamalıyev Nurəddin Hüseyn oğlunun adına olan JN-226 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış Mehdiyev Müslüm Heydər oğluna məxsus JN-753[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Şükürov Zeynalabdın Yaqubəli oğlunun adına olan JN-445 nömrəli, 10200088 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dırnıs kənd sakini Cəfərov Cəfər Musa oğlunun adına olan JN-828[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çomaxtur kəndində yaşayan Rzayev Vəli Müzəffər oğlunun adına olan JN-308 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini Əliyev Zeynalabdın Sevdimalı oğlunun adına olan JN-2460[A] və JN-2460[B] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Aşağı Buzqov kənd sakini Bayramov Elman Məhəmmədəli oğlunun adına olan JN-64[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dəstə kənd sakini Babayev Seyfəddin İsmayıl oğlunun adına olan JN-131 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kəndində yaşamış Qasımov Abdulla Ağəli oğlunun adına olan JN-819[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini:
MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 020065441

Çapa imzalanmışdır 00:00

Nömrəyə məsul: Nail Əsgərov
Rafiq Təhməzov
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 277